

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev Fondu: möhtəşəm layihələr




4


# SƏS

№ 224(7149)

5 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik


## "Bu Türk dünyasının da növbəti bir uğurudur"



2

Prezident İlham Əliyev Türkiyənin sabiq xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib

# Qondarma demokrat və ya SAXTAKAR




3

## DİQQƏT: Telefonlarımızı kim və necə dinləyir?



8

## Azərbaycanın daha bir mədəni elementi UNESCO-nun siyahısında




9

## Toka verilən BROYLER TOYUQLAR



11

## İtirilmiş NƏSİL...



5

## Messi dünya ulduzları ilə birgə Bakıya gəlir




16

# “Bu Türk dünyasının da növbəti bir uğurudur”

## Prezident İlham Əliyev Türkiyənin sabiq xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edib. Mövlud Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Mövlud Çavuşoğluna Qərbi Azərbaycan İcmasının Bakıda keçirəcəyi Beynəlxalq Konfransda iştirakına görə minnətdarlığını bildirərək, bu tədbirin əhəmiyyətinə toxundu. Mövlud Çavuşoğlu da öz növbəsində bu konfransın önəmini vurğuladı və tədbirə dəvətə görə minnətdarlığını bildirdi.

O, Azərbaycanda bu il keçirilmiş parlament seçkilərində Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə təbriklərini çatdırdı. Eyni zamanda Azərbaycanın ev sahibliyi etdiyi COP29-un çox yüksək səviyyədə təşkil olunması ilə bağlı Prezident İlham Əliyevi təbrik edən Mövlud Çavuşoğlu bu tədbiri tarixi zirvə toplantısı kimi qiymətləndirərək, burada qəbul edilmiş qərarların böyük önəm daşıdığını vurğuladı.

Dövlətimizin başçısı da COP29-un yüksək səviyyədə təşkil olunduğunu və əhəmiyyətini qeyd edərək, Türkiyə Prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin həmin tədbirdə iştirakını bir daha yüksək qiymətləndirdi və bunun COP29-un önəminin daha da artırılması işinə töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev xeyli sayda dövlət və hökumət başçısının, qonaqların tədbirdə iştirakına toxundu və konfransın qərarların qəbul edilməsi baxımından çox uğurlu olduğunu dedi, COP29-un Azərbaycanın potensialını və liderlik qabiliyyətini bir daha bütün dünyaya nümayiş etdirdiyini vurğuladı. Dövlətimizin başçısı bunun Türk dünyasının da növbəti bir uğuru olduğunu dedi. Görüşdə ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi bildirilərək, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

# Müstəqilliyimiz əbədidir: Ordumuz ancaq Azərbaycanı müdafiə etmək məqsədi daşıyır, işğalçılıq məqsədi daşımır

”Heydər Əliyev. Müstəqilliyimiz əbədidir” çoxcildliyinin təkrar nəşrinin 2-ci kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, çoxcildliyin 2-ci kitabına Ulu Öndər Heydər Əliyevin 1993-cü il noyabrın 2-dən 1994-cü il martın 9-dək keçirdiyi görüşlərə dair materiallar, çıxış və nitqlərinin, xalqa müraciətlərinin, bəyanatlarının mətnləri, müsahibələri, məktubları daxil edilib. O zaman Azərbaycan dövlət müstəqilliyini yenicə bərpa etmişdi və Ermənistanla müharibə şəraitində idi. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı 1993-cü il noyabrın 2-də Ulu Öndər Heydər Əliyev milli televiziya və radio ilə xalqa müraciət edib ordu yaradılmasının vacibliyini vurğulayıb: ”İndi bizim ordumuz yaranmalı və qurulmalıdır. Bir də qeyd edirəm, ordumuz ancaq Azərbaycanı müdafiə etmək məqsədi daşıyır. İşğalçılıq məqsədi daşımır. Bizim işimiz haqq işidir, gərək hər bir vətəndaş bunu özünün şərəfli borcu kimi qəbul etsin. Kim özü orduda qulluq edə bilirsə, qoy könüllü surətdə getsin. Kim özü qulluq edə bilmirsə, yanındakıları başa salsın ki, gedib orduda xidmət etmək lazımdır. Yaxud əgər özü orduda qulluq edə bilmirsə, fikirləşsin ki, orduya necə kömək etmək lazımdır. İndi bunların hamısı ən zəruri vəzifələrdir. Bütün xalqa, Azərbaycan vətəndaşlarına müraciət edirəm ki, bu tədbirlərin həyata keçirilməsində fəal iştirak etsin-




lər”. Oxucular müraciətin tam mətni ilə çoxcildliyin bu kitabında tanış ola bilərlər.

Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın xarici siyasətində sülhsevərliyi başlıca prinsip kimi müəyyən etmişdi. Dövlətlərarası münasibətə gəldikdə isə Türkiyə ilə əməkdaşlığı xüsusilə diqqətdə saxlayır, eləcə də digər dövlətlərlə sıx əlaqələr qurulmasına önəm verirdi. 1994-cü il fevralın 9-da Türkiyədə səfərdə olduğu zaman Ankarada Hacəttəpə Universitetinin fəxri doktoru diplomunun təqdim olunması mərasimində çıxış edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın xarici siyasəti ilə bağlı da fikirlərini söyləmişdi: ”Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir. Ölkəmiz bütün dövlətlərlə sülh və əmin-amanlıq əlaqələri yaratmaq istəyir. Azərbaycan dövləti öz xarici siyasətini məhz bu istiqamətdə yeridəcəkdir. Buna görə də Azərbaycan qonşu dövlətlərlə daha sıx əlaqələr yaratmağı xüsusilə önəmli hesab edir. Lakin burada bizim Türkiyə ilə əlaqələrimiz xüsusi yer tutur. Çünki Türkiyə ilə Azərbaycanın birgə tarixi keçmişi var. Xalqlarımız bir kökdəndir. Bizim mədəniyyətimiz də, tariximiz də, ənənələrimiz də birdir, dilimiz, dinimiz də birdir. Bütün bunlar əsrlər boyu bizi birləşdirmişdir”.

Çoxcildliyin 2-ci kitabında yer alan materiallar oxucularda, tədqiqatçılarda, politoloqlarda dövrün ictimai-siyasi prosesləri haqqında geniş təsəvvür yaradır.

Kitabın buraxılışına məsul ”Azərnəşr”in baş redaktoru Əlövsət Ağalarovdur. Çoxcildlik ”Azərbaycan Respublikasında 2023-cü ilin ”Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası çərçivəsində təkrar nəşr edilir.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.



# Prezidentin Mətbuat Xidmətinin məlumatı

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Prezident Emoməli Rəhmon COP29-un uğurlu təşkilinə görə təbriklərini çatdırıb və onun nəticələrinin qlobal iqlim gündəliyinin irəli aparılması baxımından vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib, Emoməli Rəhmonun COP29-un Liderlər Sammitində iştirakını və bütövlükdə Tacikistan nümayəndə heyətinin müzakirələrə fəal töhfə verdiyini məmnuniyyətlə qeyd edib. Telefon söhbəti zamanı ikitərəfli gündəliyə aid olan aktual məsələlər, həmçinin Tacikistanın MDB-də qarşıdan gələn sədrliyi çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# Qondarma demokrat və ya SAXTAKAR




Öz ”postu” əlindən çıxan Amerikanın keçmiş prezidenti Co Bayden, indi də oğlunu, əyyaşın, narkomanın birini, cinayət törətmiş şəxsi, xüsusən də qanunsuz silah saxlamağa görə 25 il həbs cəzası kəsilən Hanter Baydeni əfv etmək qərarına gəlməklə nə dərəcədə ”demokrat” olduğunu, qanunlara da nə dərəcədə ”hörmət” etdiyini açıq-aşkar şəkildə ortaya qoydu. Bütün dünya ictimaiyyəti məhz haqdan, ədalətdən, guya qanunun aliliyindən, eləcə də demokratik dəyərlərdən dəm vuran bir qondarma demokratın əslində, saxtakar olduğunu gördü.

## Co Baydenin əfv ilə bağlı qərarı ABŞ Ədliyyə Nazirliyinin kriteriyaları ilə qətiyyən üst-üstə düşmür və uzlaşmır

”The New York Times” (NYT) qəzetinin yazdığı kimi, Amerikanın eks prezidentinin, Co Baydenin bu əfv qərarı ABŞ Ədliyyə Nazirliyinin kriteriyaları ilə qətiyyən üst-üstə düşmür və uzlaşmır. Uzlaşa da bilməz axı. Bu qərar heç Mozambikdə də heç bir kriteriyalarla uzlaşa bilməz, nəinki Amerika kimi dünyaya demokratiya nümunəsi olmaq iddiasında olan ölkədə. Maraqlıdır, məşhur ”The New York Times” (NYT) qəzetinin özünün belə etiraf etdiyi kimi, əgər üst-üstə düşmürsə, heç də uzlaşmırsa, o zaman belə bir əfv qərarına gəlinməsi niyə Amerikada rezonans doğurmur və nəyə görə dünyanın bir çox ölkələrinə, xüsusən də Cənubi Qafqaz ölkələrinə ”demokratiya nağılı” danışan və sən demə, ”demokratiya beşiyi” sayılan ABŞ kimi bir ”ad qazanmış” ölkə heç bir reaksiya belə vermir? Görəsən, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp, məhz öz posunu əldən verən liderin, Baydenin qərarına qarşı çıxa biləcəkmi? Yaxud, Ağ Evin hazırkı ”sahibi” həmin qərara qarşı ümumiyyətlə, çıxmaq istəyəcəkmi? Bax elə Amerikanın həmin o ”demokratiyasının” məhz ”nə boyda” olduğu indi bəlli olacaq, özü də bütün dünya ictimaiyyətinə bəlli olacaq ki, ABŞ demokratiyanı necə başa düşür...

## ”Demokrat” özünə lazım olanda demokratiyanı da, bütün ali prinsipləri də utanmadan ayaqlar altına ata bilirmiş

Görünür, Bayden öz oğlunu ədalət məhkəməsindən ”xilas etmək” qərarına gəlib. Bəli, bazar ertəsi, dekabrın 2-də məlum olub ki, Amerikanın səlahiyyət müddəti başa çatan prezidenti Co Bayden oğlu Hanter Baydeni əfv edib, hansıki həmin əfv barədə ABŞ-ın keçmiş prezidentinin qərarını məhz Ağ Ev özü yayıb. Bir qədər çılpaq şəkildə ifadə etsək, Amerikanın eks prezidentinin qanunun aliliyinə, demokratiyaya hörmətsizlik etməsini, ədalət anlayışına heç tüpürmək belə istəməməsini utanmadan, qızarmadan, heç nə olmamış kimi Ağ Ev özü belə yayır və bundan sonra da bütün dünyanın üzünə baxmağa üz də tapır.

”Prezident olduğum ilk gündən Ədliyyə Departamentinin qərarlarına qarışmayacağımı söylədim və oğlumun mühakimə olunmasını seyr edərkən belə, sözümü tutdum”, - deyən Amerika lideri Bayden əslində özünü yamanca ifşa etmiş olub. Soruşmaq ayıb olmasın, bəs həmin qərarı indi niyə tutmur və nə səbəbə indi öz qərarından ”vaz keçmək” qərarına gəlir? Belə çıxır ki, prezident olduğu müddətdə məhz öz ”postu” xatirinə səsini çıxarmırmış. Bəli, əslində, Amerikanın demokratiya və ədalət anlayışı bu qədər absurddur və respublikaçı da yox, məhz ”demokrat” biri belə özünə lazım olanda demokratiyanı da, ədaləti də, ədalət məhkəməsini də, qanunun aliliyinə də, ümumiyyətlə, bütün ali prinspləri də ayaqlar altına ata bilir. Bəs, belələrinin dünyadan istəyi nədir və demokratiya deyə nağıl oxuyanlar bu reallıqlar fonunda hansı üzlə bütün dünya ictimaiyyətinin üzünə baxa bilərlər? Uzlərinə üz bağlayıb baxmaları bir tərəfə, bəzi ölkələrə, xüsusən də, Cənubi Qafqaz ölkələrinə indi hansı məntiqlə demokratiya barədə ağız dolusu danışırlar axı? Məsələn, Gürcüstanı məhz demokratiya bəhanəsi və nağılı ilə alt-üst etməyə hazırlaşanlar heçmi indi də olsa utanmaq fikrində deyillər?

## Dünya ictimaiyyəti Baydendən də, onun ətrafında olan ”demokratlardan” da bu hörmətsizliklərin və saxtakarlıqların hesabını soruşa bilər

”Beş il yarımdır ki, Hanter davamlı hücumlara və təqiblərə rəğmən ayıqda qalıb. Hanteri sındırmağa çalışmaq məni sındırmağa çalışmaq deməkdir”, deyə Bayden öz ”qərarına” don geyindirməyə çalışıb. Belə çıxır ki, o, oğlunu əfv etmək qərarına həftəsonu, bir qədər fikirləşdikdən sonra guya aydınlıq gətirdiyi qənaətinə gəlib. ”Ümid edirəm ki, atanın və prezidentin niyə belə bir addım atdığını amerikalılar başa düşəcəklər”, deyə ABŞ-ın eks prezidenti özünü və kimlərisə nəyə isə əmin etməyə çalışır. Bu anda bir sual ortaya çıxır, görəsən, amerikalılar bu boyda dünyaya nə veriblər ki, ala bilmirlər və niyə məhz amerikalılar nəzərdə tutulmalıdır? Niyə məhz amerikalıların başa düşəcəyini ata Bayden vurğulayır? Yəni, dünyanın digər ölkələrinin vətəndaşları heçmi hesaba alınmırlar?

Bir zamanlar faşistləri, nasistləri qınayırdılar ki, onlar özlərini dünyanın ən ali irqi, ən ali insanı hesab edirlər və qalanlarını hesaba da almırlar. Görəsən, indi məhz Bayden fərqindədirmi ki, özü də elə faşistlər kimi düşünür və ancaq amerikalıları nəzərdə tutmaqla dünyanın digər sakinlərinə qarşı saymamazlıq və hörmətsizlik edir? İndi dünya ictimaiyyəti üzünü tutub Baydendən də, onun ətrafında olan digər ”demokratlardan” da bu hörmətsizliklərin və saxtakarlıqların hesabını sora bilər. Ən azından bu yekəlikdə dünyanın sakinləri elə bu yekəlikdə də saxtakarlıq fonunda heç olmasa, ”demokrat” olmadığını etiraf etməsini məhz Amerikanın eks prezidentindən tələb edə bilər. Buna hər birimizin haqqımız çatır və ona qondarma demokrat da, saxtakar da deməkdə haqlıyıq.

## Ailə üzvünün cəzasını yüngülləşdirmək, yaxud ”əfv etmək” ABŞ tarixində heç də ilk dəfə baş verən hadisə deyil

Öz növbəsində TMZ portalının iddiasına görə, Bayden hələ üç ay əvvəldən belə oğlunu əfv etmək qərarına gəlibmiş, baxmayaraq ki, Amerika lideri əvvəllər heç bir işdə oğlunu əfv etməyəcəyini və ”məhkəmə prosesinə hörmətlə yanaşmağa davam edəcəyini” dəfələrlə bəyan edirdi. Diqqətə çatdıraq ki, prezidentin öz səlahiyyətindən istifadə edərək, ailə üzvünün cəzasını yüngülləşdirməsi, yaxud ”əfv etməsi” məsələsi ABŞ tarixində heç də ilk dəfə baş verən hadisə deyil. Eyni hala məhz ABŞ-ın 42-ci prezidenti Bill Klinton tərəfindən də yol verilib və onun da öz səlahiyyətlərinin son günündə belə, barəsində narkotik ittihamı irəli sürülən ögey qardaşı Rocer Klintonu əfv etdiyi də Amerika tarixinə, özü də demokratiyanın beşiyi kimi özünü təqdim edən bir ölkənin tarixinə böyük hərflərlə yazılıb. Amma nəzərə almaq lazımdır və unutmaq da lazım deyil ki, həmin o böyük hərflər bu böyüklükdə dövlət üçün elə böyük ləkə sayılır.

Doğrudur, Baydenin ”özünü təmizə çıxarmaq üçün” verdiyi açıqlamaları Amerika mediasında ciddi müzakirələrə səbəb olub. Hətta ”Politico” qəzeti ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın Baydenin oğlunu əfv etmək qərarını ləğv edib-etməyəcəyi barədə vəkil Samuel Morisondan şərh də almaq istəyib. Nəşr belə nəticəyə, belə bir qənaətə gəlib ki, Tramp vəzifəyə gəldikdən sonra nə sələfinin qərarını geri ala, nə də Hanter Baydenə qarşı cinayət təhqiqatını bərpa edə bilməyəcək. ”Tramp vəzifəyə gəldikdən sonra əfv fərmanını ləğv edə bilməyəcək və Trampın Ədliyyə Departamenti prezidentin oğlu ilə bağlı uzun müddətdir davam edən cinayət təhqiqatını yenidən aça bilməyəcək”, deyə nəşr qeyd edir. Amma həmin nəşrin də diqqətinə çatdırmaq istərdik ki, məsələ təkcə Baydenlə bağlı olsa idi dərd yarı idi. Heç Bill Klintonun da ”əvf qərarı” Amerika tarixində sonuncu hadisə hesab edilmir və hələ daha çox faktlara görə sorğusual olunmalıdır.

Amerika üçün ənənəvi hala çevrilən daha bir fakt barədə də diqqətə çatdırmaq tam yerinə düşərdi. Bələki, 8 sentyabr 1974-cü ildə ABŞ-ın 38-ci prezidenti Cerald Ford sələfi Riçard Niksonu əfv edən fərman imzalamışdı. Bu hadisə Niksonun Uoterqeyt qalmaqalına görə istefasından təxminən bir ay sonra baş vermişdi. Xatırladaq ki, Uoterqeyt ABŞ-da ən böyük siyasi qalmaqal sayılır. Çünki 1972-ci il iyunun 17-də seçki kampaniyasının qızğın vaxtında Vaşinqtondakı Uoterqeyt kompleksində məhz Demokratlar Partiyasının ofisində dinləmə avadanlığı quraşdıran beş nəfərin saxlanılması o zaman rezonans doğurmuşdu. Hətta oğurluq edənlər arasında prezident Riçard Niksonun kampaniyasının üzvlərinin olması da rezonansın əsas səbəblərindən sayılırdı. Bax budur ABŞ demokratiyası, deməkdə hər birimiz haqlıyıq. Xüsusən də ona görə ki, həmin bu hadisədə də məhz ”demokratlar” öz adlarına yaraşmayan oyun çıxarmışdılar. İndi bunlara qondarma demokrat deyək, yoxsa saxtakar?

## Əfv qərarı ilə bağlı bütün dünyada kifayət qədər ibarəli fikirlər var və bu da onun saxtakarlığını təsdiqləyir

Qanun, ədalət məhkəməsi qarşısında cavab verməli olan oğlunu Baydenin əfv etməsi ilə əlaqədar kifayət qədər ibarəli ifadələrə dünya mətbuatında yetərincə rast gəlməkdəyik və ələlxüsus da Rusiyada bu fakla bağlı maraqlı, ironik fikirlər daha çoxdur. Məsələn, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ”İzvestiya” nəşrinə müsahibəsində bu faktı ”Demokratiya mövzusunda karikatura” adlandırıb. Öz növbəsində, Dövlət Dumasının dövlət quruculuğu və qanunvericilik komitəsi sədrinin birinci müavini Daniil Bessarabov isə açıq şəkildə deyib ki, ”bu insanların demokratiya öyrətməsi qorxuludur”. O, həmçinin, Baydenin öz oğlunu əfv etməsi xəbərindən sonra amerikalılar adından, ”qanun nədir?” məntiqi sualın ortaya qoyulmasını vacib hesab etdiyini bildirib. ”Bütün dünyada bu insanların başqalarına demokratiya və qanuna hörmət haqqında nə isə öyrətmələri dəhşətlidir”, deyə Bessarabov xüsusilə vurğulayıb. Onun sözlərinə görə, qanunlara əməl olunması vətəndaş məsuliyyətinin və cəmiyyətə hörmətin təzahürüdür, hansıki bu, qanuna hörmət mədəniyyətinin formalaşmasına, vətəndaşlarla dövlət arasında etimadın möhkəmlənməsinə xidmət edir. ”Baydenin hərəkəti göstərdi ki, o, cəmiyyətə hörmət etmir və dövlətin gələcək həyatı ilə maraqlanmır, halbuki qanunlara riayət ədalətli cəmiyyət yaratmaq üçün zəruri şərtdir”, deyə Bessarabov fikrini beləcə yekunlaşdırıb. Amma heç də Baydenin belə qondarma demokrat, yaxud da saxtakar kimi aparması ilə bağlı fikilər yekunlaşmayıb.

Amerikanın özündə belə Hanter Baydenin əfvi ilə bağlı reaksiyalar ortadadır. Ağ Evin hazırki sahibi Tramp bu faktı ”sui-istifadə” adlandırıb. Onun sözlərinə görə, Baydenin belə bir qərarı ədalətin pozulması deməkdir. ”Co Hanterə verilən əfv uzun illər həbsdə olan 6 yanvar girovlarına, (söhbət 2021-ci ildə Kapitoliya hücumunun iştirakçılarından gedir) şamil edilirmi?” deyə, yeni seçilmiş ABŞ prezidenti ”Truth” sosial şəbəkəsində yerləşdirilmiş paylaşımında bir növ sual edir. Maraqlıdır, bu sual ünvanlanarkən ABŞ prezidenti nə kimi hislər keçirib və görəsən, ölkəsində belə bir hala görə nə düşünür? Hətta Baydenin bu qərarı ”demokratlar” tərəfindən də pis qarşılanıb və pislənib də. ”Mən prezident Baydenə hörmət edirəm, lakin onun səhv etdiyinə əminəm. Bu, siyasi təqib deyildi, çünki Hanter ağır cinayət törədib və münsiflər heyəti tərəfindən mühakimə olunub”, deyə ”demokratların” nümayəndəsi Qreq Stanton özünün X sosial şəbəkə hesabında şərhini də yazıb. Həmçinin Kolorado qubernatoru Jared Polis bir ata olaraq Baydeni başa düşdüyünü, lakin ”ailəsini ölkənin maraqlarından üstün tutduğuna görə məyus olduğunu” söyləyib. ”Bu, sonrakı prezidentlər tərəfindən sui-istifadə edilə biləcək pis bir presedentdir”, deyə Jared Polis bildirib.

Heç Respublikaçı qanunvericilər də rezonans doğuran bu xəbəri diqqətdən kənarda qoymayıblar. Belə ki, Nümayəndələr Palatasının üzvü Ceyms Komer X sosial şəbəkəsində Baydenin ”ailəsinin korrupsiya fəaliyyəti haqqında əvvəldən axıra qədər yalan danışdığını” deyib. ”O, təkcə oğlunun xarici iş yoldaşları ilə heç vaxt görüşmədiyini və oğlunun heç bir səhv etmədiyini yalan saymaqla kifayətlənməyib, həm də Hanter Baydeni əfv etməyəcəyini deyərək, yalan da danışıb”, deyə Komer açıqlamasında vurğulayıb. Nümayəndələr Palatası üzvü Marjori Teylor Grin də sosial mediada, ”Co Bayden sona qədər yalançı və ikiüzlüdür”, deyə qeyd edib. Respublikaçı senator Çak Qrassli də sosial mediada yazıb ki, ”Prezident Baydenin oğlu Hanteri əfv etməsindən şok oldum, çünki o, bunu etməyəcəyini dəfələrlə söyləmişdi və mən ona inanmışdım”. Nəticə bunu deməyə əsas verir ki, bəli, amerikalılar özləri də Baydeni ikiüzlü hesab edirlərsə, deməli, onun saxtakar olması öz təsdiqini tapır. Belə çıxır ki, bu ”deməkratlara” qondarma demokrat da demək olar, saxtakar da.

***İnam Hacıyev***

# Heydər Əliyev Fondu: möhtəşəm layihələr

Dini dözümlülüyün, tolerantlığın əsas məkanlarından biri kimi tanınan Azərbaycan qədim tarixi, zəngin mədəniyyəti və keçdiyi inkişaf yolu ilə ölkəmizə olan diqqəti daha da artırır. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan dəyərlərinin, tarixi reallıqlarının təbliği istiqamətində gördüyü işlər bu diqqət və marağın, sferanın genişlənməsində önəmlidir. "Mədəniyyət və incəsənət xalqları, insanları bir araya gətirmək, daha yaxşı anlamaq üçün ən gözəl vasitədir" - deyən Mehriban xanım Əliyeva milli dəyərlərimizin təbliğinə irimiqyaslı layihələri çərçivəsində nail olur və sübut edir ki, mədəniyyət və incəsənət ölkə həqiqətlərin təqdimində bir açardır. İncəsənətin imkanları sonsuzdur və o, heç bir məhdudiyyət tanımır.



Fondun təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində reallaşan şaxəli layihələr dünya xalqlarını Azərbaycana daha da yaxınlaşdırır. Müxtəlif məzmunlu tədbirlər çərçivəsində həyata keçirilən layihələrdə Mehriban xanım Əliyeva bir ideyanı gerçəkləşdirir: Azərbaycanı təbliğ etmək. Fondun fəaliyyəti dövrünə nəzər salsaq, nə qədər sayda bu məqsədlə layihələrin həyata keçirildiyinin şahidi olarıq. Reallaşan tədbirlərin əsasında Azərbaycanın panoraması kifayət qədər aydın görünür. Azərbaycanda Fondun dəstəyi ilə Cavad xanın qəbri üzərində məqbərənin ucaldılması, Comərd Qəssabın məzarı və məzarüstü türbəsinin bərpası, Abdulla Şaiqin ev-muzeyinin bərpası, Xəzər rayonunun Mərdəkan qəsəbəsində kütləvi kitabxana üçün müasir binanın inşası, Mərdəkan Mədəniyyət Sarayının yenidən qurulması, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması, Gəncə qapılarının ilkin şəkildə qurulması, Salyan Dövlət Rəsm Qalereyasının yenidən qurulması, Ağcabədidə Qarabağ Muğam Mərkəzinin inşası, Bakıda Beynəlxalq Muğam Mərkəzinin inşası, Ağdaşda Xalq artisti Habil Əliyevin adını daşıyan uşaq musiqi məktəbinin inşası, Bakı Müasir İncəsənət Muzeyinin yaradılması, Xəzər rayonunun Türkan və Binə qəsəbələrində yeni mədəniyyət mərkəzlərinin inşası, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin ərazisində Etno-Ekoloji Mərkəzin və Qala Əntiq Əşyalar Muzeyinin yaradılması, Gəncədə Nizami Gəncəvi Muzeyinin inşası, Məhsəti Gəncəvi Mərkəzinin inşası, Bakıda Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün yeni binanın inşası və s. həyata keçirilmişdir.




## DÜNYA MƏDƏNİ İRSİNƏ TÖHFƏ

Fondun xarici ölkələrdə tarixi-mədəniyyət abidələrinin bərpası və yeni mədəniyyət obyektlərinin inşası sahəsində fəaliyyətinə Gürcüstanın Tiflis şəhərində Azərbaycanın görkəmli şəxsiyyətlərinin - Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən qurulması və xiyabanın yaradılması, Parisdə Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, Luvr Muzeyinin bərpası, 2011-ci ildə İkinci Dünya Müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin bərpası, Romanın Villa Borgeze parkında Nizami Gəncəvinin abidəsinin ucaldılması, Vatikanda Roma katakombalarının bərpası, Moskvada M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının atriumunda Azərbaycanın görkəmli yazıçısı, filosofu və humanisti Mirzə Fətəli Axundovun abidəsinin ucaldılması, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması, Romada Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmirini və s. misal göstərmək olar.

## BEYNƏLXALQ FESTİVAL VƏ MÜSABİQƏLƏRİN ÜNVANI

Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafı və təbliği, Azərbaycanın milli musiqi irsinin qorunub saxlanılması, dünya musiqi incilərinin Azərbaycanda tanıdılması Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki fəaliyyətində mühüm yer tutur. Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə muğam müsabiqəsi keçirilmişdir. Qədim muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədilə muğam müsabiqələri təşkil olunmuşdur. Müsabiqə qalibləri Heydər Əliyev Fondu tərəfindən mükafatlandırılmışlar.

Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə Bakıda Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi Festivalları, "Muğam aləmi" Beynəlxalq Muğam Festivalları, Qəbələ şəhərində Beynəlxalq Musiqi Festivalları keçirilmişdir.

1945-ci ildə bəstəkar Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında ağ-qara formatda çəkilmiş "Arşın mal alan" filmi Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə dünya kino sənayesinin əsas mərkəzi olan Hollivudda bərpa edilərək rəngli formatda hazırlanmışdır.



Heydər Əliyev Fondu bir sıra incəsənət festivalları və sərgilərinin təşəbbüskarı və təşkilatçısıdır. Bu tədbirlər həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda təşkil olunur. "Mən Azərbaycanı sevirəm" adlı rəsm sərgisi, "Qız qalası" Beynəlxalq İncəsənət Festivalı, "Azərbaycan əcnəbilərin gözü ilə" adlı fotosərgi, "Tullantıdan sənətə" adlı beynəlxalq sərgi və s. uğurla qarşılanan tədbirlər sırasındadır.

## DÜNYA ÖLKƏLƏRİNDƏ REZONANS DOĞURAN TƏDBİRLƏR

Azərbaycanın dünyada tanıdılması, beynəlxalq nüfuzunun artırılması, Azərbaycanın tarixi haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyev Fondunun qarşıya qoyduğu prioritet məsələlərdəndir. 2009-cu ilin noyabr ayında Avropa Parlamentinin mənzil-qərargahında ilk dəfə olaraq Azərbaycan mədəniyyəti günləri təşkil olunmuşdur. 2010-cu ilin noyabr ayında Londonda "Azərbaycan xalçaları ilə nağıllar aləminə" adlı sərgi keçirilmişdir.

Heydər Əliyev Fondunun təşkilatçılığı dünya ölkələrində keçirilən tədbirlər maraq doğurub. Fransanın Miluz şəhərində müsəlman intibahının parlaq nümayəndəsi, ilk Azərbaycan şairəsi və qadın şahmatçısı Məhsəti Gəncəvinin 900 illiyinə həsr olunmuş sərgi və konsert təşkil edilib. Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində "Azərbaycan - tolerantlıq məkanı" adlı foto sərgisi açılıb. Kölndə "Azərbaycan gecəsi" keçirilib. Strasburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuş sərgi açılıb. Avropa Parlamentinin mənzil-qərargahında ilk dəfə olaraq Azərbaycan mədəniyyəti günləri təşkil olunmuşdur. Londonda "Azərbaycan xalçaları ilə nağıllar aləminə" adlı sərgi keçirilmişdir. Bütün bunlar Azərbaycan milli mədəniyyətinin, tarixi ənələrinin nümayişidir.

## İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRİMİZƏ YENİ NƏFƏS

Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərimizə də öz dəstəyini verir. Heydər Əliyev Fondunun dəstəyi ilə 2022-ci il mayın 12-14-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı keçirilib. V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhər Dövlət Qoruğu tərəfindən təşkil olunub. Festivalda xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri iştirak ediblər. Şuşada Heydər Əliyev Fondu tərəfindən Yuxarı Gövhər Ağa, Saatlı məscidləri, eləcə də Mehmandarovların malikanə kompleksi ərazisindəki məscid bərpa edilib və 2023-cü ilin may ayında istifadəyə verilib. Əlbəttə ki, bu gün Azərbaycanda baş verən sıçrayışlardan, onun simasının gündən-günə dəyişməsindən, dünyanın nüfuzlu dövlətləri sırasında layiq yer qazanmasından danışarkən Heydər Əliyev Fondunun da fəaliyyətini vurğulamaq vacib məqamlardandır. Yarandığı zamandan Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrini reallaşdırır. Elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirərək, respublikanın və xarici ölkələrin fondları ilə əməkdaşlığı genişləndirir. Qısa bir zamanda xalqlararası münasibətlərin möhkəmlənməsinə xidmət edən fəaliyyəti təqdirəlayiqdir.

Gördüyümüz kimi, Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliğini təmin edən layihələrin dəstəklənməsinə yönələn tədbirlər həyata keçirməklə böyük layihələrin müəllifinə çevrilib. İnanırıq ki, Mehriban xanım Əliyeva gələcək fəaliyyətində də bu strateji istiqamətlərdə möhtəşəm layihələrin həyata keçirilməsini davam etdirəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşması üçün sülh müqaviləsinin imzalanması vacibdir"



***Azərbaycan Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin tezliklə təmin olunmasının tərəfdarıdır. Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi bölgənin strateji gündəliyinin və siyasi gündəminin aktual mövzusudur. Yeni mərhələdə bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşması, qarşıdurma və təhdidlərin istisna olunması üçün sülh müqaviləsinin imzalanması vacibdir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva söyləyib.***

Deputat bildirib ki, 44 günlük Vətən müharibəsində parlaq Qələbə qazanan Azərbaycan bununla da Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Müharibədə Ermənistanı ağır məğlubiyyətə uğratmasına baxmayaraq, Azərbaycan dövləti bölgənin gələcəyi naminə qarşı tərəfə beynəlxalq hüquq normalarına əsaslanan sülh sazişi imzalamağı təklif edib. Uzun müddətdir ki, sülh sazişi üzrə danışıqlar davam edir. Lakin Ermənistan sülh üçün əsas şərtləri yerinə yetirməkdən yayınır.

S.Fətəliyeva qeyd edib ki, Ermənistanın bu manipulyasiya və siyasi avantüralarının son məqsədi sülh prosesini ləngitmək, yaxud iflasa uğratmaqdır. Paşinyan hakimiyyəti regionda formalaşan yeni arxitekturanı, olduqca pozitiv əməkdaşlıq imkanlarını, inkişafı və təhlükəsizliyi təhdid edir, açılan yeni perspektivlərə zərbə vurmağa çalışır. Digər tərəfdən Ermənistan hazırda işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən işlərin miqyasını aydın görür. Sülh prosesinin pozulmasında məqsədlərdən biri də bu prosesə zərbə vurmaqdır. "Dünya dövlətləri və beynəlxalq təşkilatlar hazırda Ermənistanın yürütdüyü siyasətin mahiyyətini aydın görməli, onun əsl niyyətlərini düzgün qiymətləndirməlidir. Əgər Ermənistan sülhə məcbur edilməsə, regionda qeyri-sabitlik davam edəcək. Çox maraqlıdır ki, hazırda bir sıra Qərb ölkələri Ermənistanı sülhə yox, revanşizmə sövq etməyə çalışır. Fransa kimi ölkələrin addımları da bunu sübut edir. Sual olunur, Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlayarkən onlar nə üçün susurdular? Nə üçün haqqın, ədalətin yanında deyildilər? Bu faktlar dünyada ikili standartların göstəricisidir. Azərbaycan öz mövqeyində beynəlxalq hüquq normalarına arxalanır. İşğalçı, təcavüzkar dövlət Ermənistandır. Bu gün, sadəcə, ölkəmiz haqqında beynəlxalq birlikdə yanlış rəy formalaşdırmağa cəhdlər göstərilir. Belə bir halda kimlərinsə ölkəmizi ittiham etməsi qəbulolunmazdır. Əgər beynəlxalq birlik, dünya gücləri regionumuzda sülhün və sabitliyin təmin olunmasını istəyirsə, Ermənistana təzyiqlər göstərməlidirlər. Lakin biz görürük ki, Ermənistanın yeni müharibə avantürası Qərbin növbəti planıdır. Burada Ermənistan hakimiyyəti ilə Qərbin maraqları üst-üstə düşür. Rəsmi İrəvan nəzərə almalıdır ki, sülhü yox, hərbi təxribatlar yolunu seçərsə ‚layiqli cavabını alacaq", - deyə deputat vurğulayıb.

# Elnarə Akimovanın yeni kitabi çap olunub




Tənqidçi-ədəbiyyatşünas, filologiya elmlər doktoru, Milli Məclisin deputatı Elnarə Akimovanın "Azərbaycan uşaq ədəbiyyatı: tarixi təcrübəsi və müasir istiqamətləri" adlı yeni kitabı çap olunub. "Elm və təhsil" nəşriyyatında işıq üzü görən kitabın elmi redaktoru və ön sözün müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, rəyçiləri filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan və filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlıdır. Kitabda çağdaş humanitar fikrinin kontekstində Azərbaycan uşaq ədəbiyyatının tarixi təcrübəsi - təşəkkülü, yaranması və inkişafı ümumiləşdirilir. "Uşaq ədəbiyyatı: tarixdən çağdaşlığa", "Klassika modern işığında", "Uşaq mətnləri diskurs kimi", "Uşaq ədəbiyyatında müharibə və zəfər duyğuları", "Dərsliklərin vəziyyəti: problemlər, qayğılar", "Müsahibələr: analitik müstəvidə", "Müzakirə saatı: söhbətlər, düşüncələr", "Uşaq ədəbiyyatında imzalar" adlı bölmələrdə sistemləşdirilən mətnlərdə uşaq ədəbiyyatının müasir istiqamətləri ilə bağlı dəyərləndirmə aparılır, müxtəlif uşaq ədəbiyyatı nümunələrinin poetikası, üslub və növ zənginliyi nəzəri analizə cəlb olunur, habelə Zəfər tariximizdən sonra uşaq ədəbiyyatının vardığı yeni hüdudlar tədqiqat predmetinə çevrilir. Kitab humanitar fikir adamlarına, elm, ədəbiyyat və geniş oxucu auditoriyalarına ünvanlanmışdır.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# İtirilmiş NƏSİL...

## Tik tok və "sosial proqramlar" milli genefondumuza "od qoyur"

Son bir neçə ildir ki, Azərbaycan teleməkanı böyük bir xalqın min illik dəyərləri üçün kabus halına çevrilib. Ağına-bozuna baxmadan ən primitiv şəkildə bu xalqın milli dəyərlərini milyonların gözləri qarşısındaca məhv edən, yeniyetmə və gəncləri azərbaycançılıqdan uzaqlaşdırıb beynini zəhərləyən "sosial proqramlar" və sosial şəbəkələr durmaq fikrində deyillər. Əksinə, hər gün daha da "artırırlar". Yalançı "reytinq" görüntüsü yaradan bu cür proqramlarda cəmiyyəti bilə-bilə aşağı səviyyəli düşüncəyə sürükləmək, intellektual, düşündürücü efir əvəzinə, insanları manqurtlaşdıran şoular keçirmək, təhsil əvəzinə yaşlı insanların özlərini gülünc vəziyyətə saldıqları, kənd-kəsəkdə uşaqlarını evdə qoyub subay oğlanlara qoşulub qaçan gəlinləri, belələrinin dalınca studiyaya gəlib diz çökən biqeyrət "kişiləri" reklam etmək bunların əsas işinə çevrilib. Qəti şəkildə çəkinib ehtiyat edəcəkləri heç nə də yoxdur.

"Böyük cəsarət" sahibidirlər ki, bir xalqın kişilik, ar-namus kimi dəyərlərini hamının gözü qarşısında məhv edirlər. Bu, bütöv bir Ermənistanın Azərbaycana qarşı düşmənçilik siyasətindən qat-qat dəhşətli zərbədir bu xalqa. Bu ölkə düz 30 ildən sonra böyük cəsarətlə öz torpaqlarını yenidən geri qaytara bildisə, bu gün efirlərdə və sosial şəbəkələrdə bilə-bilə, qəsdli şəkildə itirilmiş mənəviyyatımızı bir də heç vaxt geri qaytara bilməyəcəyik. Bu, acı və dəhşətli gerçəkdir!

Bəs bunların efirlərdə, sosial şəbəkələrdə etdikləri iyrəncliklərin əsas məqsədi nədir? - məqsəd KİŞİLİK qürurunun, qadın ar-namusunun, müqəddəs ailə dəyərlərinin yeniyetmə və gənc nəslin gözündən salınması siyasəti. Açıq şəkildə cəmiyyəti MANQURTLAŞDIRMAQ, vəssalam!

Min dəfə təəssüf olsun ki, ölkəmizdəki ziyalı təbəqəsi milli genefonumuzun, dəyərlər sistemimizin belə şəkildə məhv edilməsinə bircə dəfə də tutarlı etiraz səsini qaldırmayıb. Ziyalı demək qalstuk taxmaq, bahalı kostyumunun döş cibinə parça qoyub cəmiyyətin problemlərinə yuxarıdan aşağı baxmaq demək deyil. Ziyalı olan kəs milli dəyərlərimizin, yeniyetmə nəsillərimizin əldən getdiyi bugünkü vaxtda səsini çıxarmasa, bəs nə vaxt lazım olacaq cəmiyyətə?..

Bu gün efirlərdə Azərbaycan cəmiyyətinə təqdim olunan verilişlərin anormallığı ilə yanaşı, aparıcıların, habelə ailə-məişət məsələlərinə həsr olunan verilişlərə çıxarılan "ekspertlərin" səviyyəsi də heyrət doğurur. Keçmişi qaranlıqlar və əxlaq problemləri ilə "zəngin olan" bu yalançı "ekspert" sürüsü, ən iyrənc şəkildə milyonlarla insana yol göstərmək üçün elə şəkil alırlar ki. Hərə ağlına və ağzına gələni danışır, efirdən söyüş söyülür, bilmədikləri məsələlər haqda insanlara yanlış məsləhətlər verirlər. Azərbaycan efirlərində yayımlanan diletant səviyyəli "serial" rəzalətindən isə danışmağa dəyməz. Çox əcaib bir durumdur.

Tamaşaçının zövqünü, mənəviyyatını, sağlamlığını, əsəblərini, ədəbi dilimizi, efir mədəniyyətini korlamaq - bunların hamısı birbaşa xalqımızı, genefondumuzu məhv etmək deməkdir! Onlar da bunun fərqindədirlər, sadəcə bu xalqa qarşı mənəvi divan tutmaq, milli dəyərlərimizi yeniyetmə və gənclərin şüurundan silmək üçün onlara tapşırılan "missiyanı" yerinə yetirmək üçün belə əcaib duruma düşürlər.

Adi şəkildə azca diqqət etsən aydınca görürsən ki, əhalinin birbaşa mənəvi və psixoloji məhvinə yönəlik verilişlər həm də sırf biznes layihələridir. Yəni kimlərsə pul qazanmaq üçün xalqımızın mənəviyyatını baltalayır. Həm məhv et, həm də milyonlar qazan!

Hazırkı Azərbaycan gəncliyi həm də ən çox sosial şəbəkə seqmentində məhv edilir. Xüsusilə nəzarətsiz poliqona çevrilmiş, cinsi azlıqlardan, ləçər fahişələrdən başlamış ən təhlükəli ideoloji və sosial qruplara qədər bir çoxlarının at oynatdıqları bu sosial şəbəkə seqmentində Azərbaycanlı dəyərlərinin əsl genosidi reallaşır. Burada da bilərəkdən, qəsdli şəkildə yeniyetmə və gənclərin yoldan çıxarılması üçün var gücləri ilə çalışırlar. Cinsi azlıqlara edilən bahalı hədiyyələrin, uğursuz ailə həyatı ilə yadda qalan ləçər "tik-tokerlər"in qazandıqları pullar bütün günü reklam olunur, gələcək nəsillər ən amansız şəkildə məhv edilir. özü də hər kəsin gözləri qarşısında...

Gəlin müqayisə edək. Dünyanın hər yerində insanlar bu müasir və sürətli informasiya texnologiyalarından, imkanlardan daha çox inkişaf etmək, yeniliklər öyrənmək üçün bəhrələnsə də, bu məsələdə Azərbaycan cəmiyyətində hər şey tam əskinə gedir. Rəhmətlik Mirzə Cəlilin "Poçt qutusu"ndakı Novruzəli cəmiyyəti ilə hazırkı internet əsrindəki tik tok cəmiyyəti arasında heç bir düşüncə fərqi, irəliləyiş yoxdur. Əsrlər keçsə də, cəmiyyət olaraq sosial sferadan başlamış ta milli dəyərlərə qədər şüur və düşüncə baxımından heç nəyimiz dəyişməyib. Elə "Poçt qutusu"ndakı Novruzəlinin qoyub getdiyi cəmiyyətdir. O dövrün faytonundan, qazalağından atlanıb bugünkü internet əsrində bahalı "Rance Rover"ə, milyonluq "Rolls-Royce"ə, "Bugatti"yə, "Lamborghini"yə əyləşsək də, təfəkkür və düşüncəmiz dəyişmir ki, dəyişmir. Bu fakt acıdır, lakin olan HƏQİQƏT BUDUR!

Bu gün ən inkişaf etmiş dünya ölkələri - ABŞ-dan, Almaniyadan başlamış Avstraliya və Finlandiyaya qədər bir çoxları tik toku öz ölkələrində məhdudlaşdırır, xüsusilə yeniyetmələrin bu sosial şəbəkə seqmentinə daxil olmasını qadağan edirlər. Bu ölkələr öz qərarlarını yeniyetmə və gənclərin tik tokda depressiyaya, mənəvi tənəzzülə uğramaları ilə əlaqələndirirlər. Kəsəsi, öz gələcəyini düşünən heç bir ölkə bizdəki kimi tik toku nəzarətsiz poliqona çevirmək istəmir. Çünki heç kəs bizdə olduğu kimi İTİRİLMİŞ NƏSİL acısı yaşamaq istəmir. Gəlin özümüzü və canımızdan çox sevdiyimiz uşaqlarımızın gələcəyini bu şəkildə xərcləməyək. Gəlin övladlarımızı sosial şəbəkə ağuşundan qoruyaq. Çünki bir az da gec tərpənsək, həm də lap uzaq gələcəyimizi itirəcəyik, unutmayın...

# Gəncliyin yeni inkişaf modeli - könüllülük

***BMT Baş Assambleyasının 1985-ci il 17 dekabr tarixində qəbul olunan qətnaməsi əsasında hər il 5 dekabr dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. Bu gün dünyanın bir parçası olan Azərbaycanda da qeyd olunur. Qeyd olunan günün böyük anlamı var. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. "Könüllü" termininin etimologiyasına nəzər salsaq görərik ki, bu söz öz ilk dəfə 1600-cı illərdə istifadə olunub. "Hərbi xidmət üçün özünü təqdim edən" mənasını daşıyır.***

Ölkəmizdə könüllülük fəaliyyəti üçün hər cür şərait yaradılıb, bu istiqamətdə zəruri hüquqi baza mövcuddur. Eyni zamanda, bütün dövlət qurumları tərəfindən bu fəaliyyətə cəlb olunmuş təşkilat və şəxslərə lazımi dəstək göstərilir. Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Bu fəaliyyətlə məşğul olanlar digər şəxslərə kömək etməklə yanaşı, öz bilik və bacarıqlarını təkmilləşdirmək imkanı qazanırlar. Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 9 iyun 2009-cu ildə "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Bu Qanunun məqsədi hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyir. Qanunun qəbul edilməsi Azərbaycan könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynadı. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu. Vətəndaşın, cəmiyyətin və dövlətin fəaliyyətini təcəssüm etdirən könüllülük gənclər siyasətinin əsas istiqamətlərindəndir.

Əlbəttə ki, müasir dövrümüzdə vətənpərvər Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə töhfəsini verir. Bu gün Azərbaycan gəncliyi ona göstərilən diqqətin fərqindədir və gənclik ona olan etimadı hər zaman doğrultmaq üçün bütün potensalından maksimum dərəcədə istifadə edir. Millətin mövcudluğunda, dövlətin tərəqqisində, dünyada nüfuz qazanmasında əlbəttə ki, vətəpərvər gəncliyinrolunu xüsusi olaraq qeyd etməliyik.




### BEYNƏLXALQ VƏ QİTƏ MİQYASLI TƏDBİRLƏRDƏ KÖNÜLLÜLƏRİN FƏALLIĞI

Prezidenti İlham Əliyevin reallaşdırdığı siyasətin əsas məqsədlərindən biri neft kapitalının insan kapitalına çevrilməsi idi. Bu zaman qarşıya qoyulan məqsədləri gerçəkləşdirmək üçün innovativ və geniş kütlənin maraqlarına cavab verən yeni addımlara ehtiyac vardı və əlbəttə, bu sahədə könüllülüyün mühüm önəm daşıması danılmaz idi. Əlbəttə ki, müasir dövrümüzdə ölkəmizin demək olar ki, hər bir yerində könüllü gənclərin də payı var. Azərbaycanda həyata keçirilən beynəlxalq və qitə miqyaslı tədbirlərdə, o cümlədən idman yarışlarında gənclərin könüllülər qrupunda təmsil olunması vətənpərvər, milli köklərə bağlı, müasir dünyagörüşlü, şəxsi keyfiyyətləri yüksək olan vətəndaş kimi formalaşmasını özündə təcəssüm etdirir. Könüllülük fəaliyyəti gənclərdə faydalı əmək, həmrəylik kimi dəyərlər aşılamış olur. Qeyd edək ki, 2020-ci il Azərbaycan Respublikasında dövlət başçısının Sərəncamı ilə "Könüllülər ili" elan edilmişdir. Bu Sərəncam gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyır. Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır. Ölkəmizdə keçirilən Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynayıblar. Hazırda ölkəmizdə yürüdülən gənclər siyasətinin mərkəzində gənclərin maraqları, onların potensiallarının artırılması, cəmiyyətə yararlı vətəndaş kimi yetişmələri dayanır.



COP29 könüllüləri bu tədbirdə də fəallıq göstərdi. COP29 könüllüsü olmaq iqlim konfransının bir hissəsi olmaq, mehriban və dinamik komandaya qoşulmaq üçün bir fürsət imkanı yaratdı.

Ulu Öndər Heydər Əliyevin müdrik kəlamını xatırlatmaq yerinə düşər. Ulu Öndər deyirdi ki, gənclərimizin ən mühüm vəzifələrindən biri də ordu sıralarında xidmət etməkdir. Bəli, vətəni qorumaq, onun müdafiəsində durmaqdan şərəfli bir iş yoxdur. Bizi bir millət olaraq yaşadan Vətənimizdir, Vətən torpağıdır. Onun üzərinə axıdılan igid vətən oğullarının qanıdır. Hər bir vətən oğlunun yolu Azərbaycan Silahlı Qüvvələrindən - vətənə xidmətdən keçir, ərənlik və kişilik məktəbindən. Bu gün Azərbaycan Ordusunun hərbi hissələrində vətənpərvərlik, yüksək ruh hakimdir.

### "MİNLƏRLƏ KÖNÜLLÜ 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ ZAMANI AZƏRBAYCANA MÜQƏDDƏS ÖVLADLIQ BORCUNU ŞƏRƏFLƏ YERİNƏ YETİRMİŞDİR"

2020-ci il Vətən müharibəsində Azərbaycanın vətənpərvər oğulları könüllüyün daha bir bariz nümunəsini əməldə ifadə etdilər. Ali Baş Komandanın ətrafında sıx birləşərək, Vətən müharibəsində iştirak etməyə qərər verdilər. İsrarlı olaraq, torpaqlarımızı müdafiə etməyə qalxdılar. Vətənin müdafiəsinə qalxan oğullar erməniyə dərs vermək, işğal altında olan torpaqlarımızı azad etmək uğrunda könüllü olaraq orduda xidmət etmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına səs verdilər. Yaşından asılı olmayaraq, hər kəs müsəlləh əsgərə çevrildi. Sağlam düşüncəli gənclərimiz könüllü olaraq ön cəbhəyə yola düşdülər. Vətənin müdafiəsində dayandılar. Heç şübhəsiz ki, öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən könüllülük əsasında cəmiyyət, vətən naminə təmənnasız işlərin görülməsi dayanır. "Ölkəmizdə hazırda sistemli və dinamik inkişaf edən könüllülük hərəkatı mövcuddur. Könüllülərin sosial sahədə, ictimai xidmətlər sektorunda töhfəsi aydın hiss olunur. Onlar cəmiyyətin maraqları naminə təmənnasız fəaliyyət göstərərək müxtəlif mədəni tədbirlərin, idman yarışlarının, ekoloji və sosial aksiyaların, təbliğat və maariflləndirmə kampaniyalarının uğurla keçirilməsində, dövlət xidmətlərinin vətəndaşlara çatdırılmasında yaxından iştirak edirlər. Minlərlə könüllü 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana müqəddəs övladlıq borcunu şərəflə yerinə yetirmişdir", - deyə Prezident bildirib.

### ÜMUMMİLLİ HƏRƏKATA ÇEVRİLƏN KÖNÜLLÜLÜK

Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilib, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərin həyat tərzinə çevrilib. "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranıb, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb. Ölkəmizdə mərkəzi icra hakimiyyəti orqanı və bütün yerli icra hakimiyyəti orqanları yanında könüllü qrupları yaradılıb. Belə ki, bu gün ölkəmizdə "Gənc Könüllülər", "RİİB Könüllüləri", "BİR Tələbə-Könüllülər", "Aqrar İnkişaf Könüllüləri", "KOB Könüllüləri", "Miqrasiya Könüllüləri", "Ədliyyə könüllüləri" və s. qurumlarda müxtəlif könüllülər təşkilatları uğurla fəaliyyət göstərirlər.

Eyni zamanda, 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) yanında könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı yaradıldı. "ASAN xidmət" mərkəzləri yarandığı gündən könüllülərin fəaliyyətindən geniş istifadə olunur. Könüllülər "ASAN xidmət"in ayrılmaz tərkib hissəsinə çevrilib.

Onlar yüzlərlə fərqli layihələr həyata keçiriblər, müxtəlif təlim və treninqlərə cəlb ediliblər. 2013-cü il dekabrın 19-da "ASAN Könüllülərinin I Qurultayı" keçirilib. Əlbəttə ki, keçirilən tədbirlər ölkəmizdə vüsət almış gənclər siyasətinin tərkib hissəsidir. "Müharibədə qazandığımız parlaq Zəfərdən sonra ölkəmiz üçün artıq yeni dövr başlamışdır", - deyən Prezident bildirib ki, xalqımız müharibə meydanında nümayiş etdirdiyi hünəri azad olunmuş torpaqlarımıza həyatın yenidən qaytarılmasına yönələn genişmiqyaslı abadlıq-quruculuq və bərpa işlərində göstərir. Böyük Qayıdışın uğurla gerçəkləşdirilməsi prosesinə gənclər öz töhfələrini verirlər.

***Zümrüd BAYRAMOVA***

# Bədbəxt hadisələrdən necə sığortalanmalı?

*EKSPERT RƏYLƏRİ*





Sumqayıtda binada baş verən partlayış hadisəsi nəticəsində binanın həyətində dayanan avtomobillərə də ciddi ziyan dəyib. Həmçinin hadisədə yaşayış binasının şüşələri də sınaraq yerə tökülüb. Bəs dəyən zərəri kim ödəməlidir? Bu kimi hadisələrdən özümüzü necə qorumalıyıq? SİA mövzu ilə bağlı Aqrar Sığorta Fondunun nümayəndəsi Əli Əhmədovun və milli təhlükəsizlik mütəxəssisi Rəşad Rzanın fikirlərini öyrənib.

**Aqrar Sığorta Fondunun nümayəndəsi**
Əli Əhmədov:

"Sumqayıtda baş verən partlayış hadisəsi nəticəsində ətrafdakı maşınlara, daşınmaz əmlaka, obyektlərə ziyan dəyib. Ümumiyyətlə, dəyən zərər iki formada ödənilə bilər. Bu əmlaklar, maşınların sahibləri öz əmlak və avtomobillərini sığortalamalıdırlar. Əgər sığortalayıblarsa, onlar özlərinə dəyən zərəri sığorta şirkətindən alırlar. Sığorta şirkəti də bu zərəri qiymətləndirir, onlara ödənişi edir. Sonra onlara etdiyi ödənişi bu partlayışın səbəbkarları kim olacaqsa, onlara yönəldəcəklər. Zərərçəkmişlərə verdikləri pulu səbəbkarlardan alacaqlar. Bu, o halda baş verir ki, bu əmlaklar sığortalıdır.Əgər bu əmlaklar sığortalı deyilsə, onda onlar özləri məhkəmənin qərarını gözləmədirlər. Müvafiq dövlət qurumları tərəfindən bu hadisənin səbəbkarı aşkar edildəndən sonra həmin səbəbkarı məhkəməyə verəcəklər. Dəyən zərəri ondan alacaqlar. Bu, olduqca uzun prosesdir. Məhkəmə prosesi uzun çəkə bilər. Onlar məhkəmənin bitməsini, səbəbkarın tapılmasını gözləsələr, uzun çəkəcək. Məhkəmənin qərarı hələ son qərar deyil, kimsə apellyasiyaya verə bilər. Uzun ay, bəlkə də, illərlə məsələ müzakirə oluna bilər. Amma o vaxta qədər gözləməlidirlər. Ən yaxşı o olardı ki, onlar maşınlarını, evlərini sığortalatmış olaydılar. Dərhal ödənişi sığorta şirkətindən alandan sonra sığorta şirkəti gözləmədə olur. Sığorta olmadığı halda səbəbkar elə şəxs ola bilər ki, onun maddi vəziyyəti yaxşı olmaz. Ona görə də, ən yaxşı üsul əmlakı sığortalamaqdır".



**Milli təhlükəsizlik mütəxəssisi**
Rəşad Rza:

Təəssüf ki, Sumqayıtda belə hadisə ilə qarşılaşdıq. İnsanlar əvvəldən diqqət etməli, təhlükəsizlik qaydalarına əməl etməlidirlər. Bəzi məsələlərə dırnaqarası baxılmamalıdır. İnsanlar öz təhlükəsizliklərinə yetərincə diqqət etməlidirlər. Öncədən yoxlanılmalıdır. Hər kəsin, ətrafın da üzərinə düşür ki, belə hallarda xəbərdarlıq edilsin, xəbər verilsin".

***Söylü***



# Boşanma zamanı sənədsiz evin bölgüsü necə olur?

*AYDINLIQ GƏTİRİLDİ*

"Ər-arvadın ümumi əmlakının bölünməsi ilə bağlı mübahisələrdə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 12 mart 2024cü il tarixli Qərarına əsasən bu əmlakların qeydiyyatda olmamasına, hətta qanunsuz olmasına baxmayaraq, bundan sonra boşanma zamanı özbaşına tikililər də bölünəcək". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Onun sözlərinə görə, Ali Məhkəmə Plenumunun martın 12 mart 2024-cü il tarixli Qərarında boşanma ilə bağlı indiyədək problemlər yaradan məsələlər həllin tapıb. və dəqiqləşdirmələr aparılıb: "Ali Məhkəmə Plenumunun Qərarında boşanmalar zamanı tez-tez rast gəlinən problemli olan qeydiyyatsız və özbaşına tikililər barədədir. Yeni qərara əsasən, əmlakların qeydiyyatda olmamasına, hətta qanunsuz olmasına baxmayaraq, bundan sonra boşanma zamanı özbaşına tikililər də bölünəcək".

Fariz Əkbərov sözlərinə belə davam edib: "Eyni zamanda ər-arvadın birgə nikah dövründə ipoteka krediti ilə alınan əmlakı ilə bağlı yeni qayda tətbiq olunub. Əmlak ümumi hesab edildiyi kimi bankdan götürülən kredit də hər ik tərəfdən ödəməlidir".

***Ayşən Vəli***

# "Sürücülük vəsiqəsini heç bir halda pulla almaq olmaz"

*MÜNASİBƏT*



"Azərbaycanda sürücülük vəsiqəsini heç bir halda qeyri-qanuni yollarla əldə etmək, almaq mümkün deyil". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Eldəniz Cəfərov deyib. O bildirib ki, sürücülük vəsiqəsi imtahan nəticəsində verilir: "Vətəndaş sürücülük vəsiqəsi alana qədər bir sıra prosedurlardan keçir. Onlardan birincisi tibbi müayinədir, daha sonra sürücülük kursları, sürücülük məktəbidir. Sürücülük məktəbini bitirmədən vətəndaş sürücülük vəsiqəsi imtahanını verə də bilmir. Ona görə də, əvvəlki prosedurlar həyata keçirilir, sonra vətəndaş sürücülük məktəbini uğurla bitirdikdən sonra ona xüsusi şəhadətnamə verilir ki, bu həqiqətən də, onu göstərir ki, sürücülük məktəbində oxuyan şəxs kursu keçib, məlumatlıdır, qayda-qanunlardan xəbəri var. Ondan sonra imtahana buraxılır.



Sürücülük vəsiqəsini heç bir halda heç cür pulla almaq olmaz. Gedib sürücülük məktəbini oxumalısan, sağlamlıq haqqında arayışın olmalıdır. Həkimlərdən keçməlisən, tibbi arayışın olmalıdır. Daha sonra imtahana buraxıla bilərsən. İmtahanı müvəffəqiyyətlə versən, dövlət rüsumunu ödəyib sürücülük vəsiqəsini alıb sürücü kimi fəaliyyət göstərə bilərsən. Sürücülük imtahanlarına həm müstəqil, həm də sürücülük kurslarında (sürücülük məktəblərində) təhsil alaraq hazırlaşmaq olar".

"Sürücülük imtahanı şəxsin yaşadığı yer üzrə DYP-nin qeydiyyat-imtahan və texniki baxış şöbələrində (bölmələrində) verilməlidir. Şəxsin yaşadığı yer dedikdə, onun həm rəsmi qeydiyyatda olduğu, həm də müvəqqəti yaşadığı yer başa düşülür. Lakin şəxs müvəqqəti yaşadığı yer üzrə imtahan vermək istədikdə həmin yerdə müvəqqəti yaşadığı barədə arayışı da şəxsiyyət vəsiqəsi ilə birlikdə təqdim etməlidir. İmtahana buraxılmaq üçün sürücü olmaq istəyən şəxs hər bir halda sağlamlıq arayışı da təqdim etməlidir. Sağlamlıq arayışı olmadan heç kəs imtahana buraxıla bilməz" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# DİQQƏT: Telefonlarımızı kim və necə dinləyir?

***Maraqlıdır ki, son vaxtlar sosial şəbəkələrdə, internetdə olarkən nəsə desək, həmin mövzuda reklamlar görməyə başlayırıq. Bu vəziyyət insanların "Biz dinlənilirik?" sualına səbəb olur. Bəs, həqiqətən dinləyirik? Yoxsa bu təsadüfdür?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Maraqlıdır ki, son vaxtlar insanların dediyi sözlər reklam olur. Məsələn, bir dostunuza yeni bir avtomobil haqqında danışdınız. Sonra internetdə gəzərkən həmin avtomobilin elanını gördünüz. Belə olan halda "biz dinlənilirikmi?" deyə sual yaranması normaldır. Bu vəziyyətin təsadüf olması da mümkündür.

Bizi dinləyirlərmi sualının cavabı sadəcə olaraq "bəli" və ya "yox" deyil. Çünki bu, istifadə olunan texnologiyadan və məlumatların necə istifadə olunmasından asılı olaraq dəyişir. Əvvəllər insanların nə dediyini izləmək çətin idi. Ancaq indiki vaxtda internet və sosial media sayəsində insanların dediklərini izləmək çox asanlaşıb. Bu, şirkətlərə insanların dediklərini izləməyə və bu məlumatı marketinq məqsədləri üçün istifadə etməyə imkan verir. Şirkətlər insanların dediklərini izləmək üçün müxtəlif üsullardan istifadə edirlər. Məsələn, onlar sosial media platformalarından, axtarış motorlarından və hətta telefon zənglərindən məlumat toplaya bilərlər. Bu məlumatlar şirkətlərə insanların maraqlarını və davranışlarını anlamağa kömək edir.

Bu məlumatlar əsasında şirkətlər insanların diqqətini cəlb edən reklamlar yarada bilərlər. Bu, dediyimiz şeylərin reklam kimi görünməsinə səbəb olur. Təbii ki, bu həmişə doğru deyil. Bəzən dediklərimizin reklam kimi görünməsi təsadüf ola bilər. Ancaq bu gün bunun təsadüf olma ehtimalı kifayət qədər aşağıdır.





## Həlli yolu var?

*Dediklərinizin reklam kimi qarşısına çıxmasını istəmirsinizsə, bu addımları izləyə bilərsiniz:*

- Google profilinizi açın,
- Hesabınızı idarə et bölməsinə klikləyin,
- Veb və tətbiq fəaliyyətini seçin,
- Nitq və audio fəaliyyətini söndürün,
- Sonra qayıt,
- Məlumat və məxfilik üzərinə kliklməklə burada reklam mərkəzini seçin,
- Görünən reklamlar bölməsini söndürün.

**SMM Manager (Sosial Media Marketing Mütəxəssisi) Murad Yazimov:** "Son illərdə insanların ən çox marağına səbəb olan mövzulardan biri də niyə haqqında danışdığımız çox keçmədən reklamlarda bizim qarşımıza çıxır. Hərkəsi marağlandıran odur ki telefonumuza qulağ asırlar?

Əslində bunu edən bizim telefonumuz yox telefona yüklü olan programlar və bizim o programlara verdiyimiz icazələrdir. Belə ki biz hərhansısa programı yüklədikdə ona mikrafon icazəsi veririk və internetimiz açıq olarkən danışdığımız sözlər dinlənilir və filterlərdən keçir. Filterlər dediklərimiz isə firmaya lazım olan (key words) yani açar sözlərdir. Sizin danışığınızda keçən hər hansısa bir söz o açar söz ilə üst-üstə düşərsə sizin qarşınıza onunla bağlı reklamlar çıxarır. Sizin üçün vacib olmayan bir mövzu belə olsa danışdığınız məhsul,xidmət və s. Sizin qarşınıza çıxararaq sizə doğurdanda ehtiyacınız varmış kimi hiss etdirib xatırlatma edir.

Bəs bunun qarşısını almaq mümkündür? Təəsüf ki nə ios nədə Android də bu mümkün deyil. Alabiləcəyiniz tədbir isə bildirim almanı bağlama və ya programi silmək ola bilər".

Qabaqcıl alqoritmlərə malik tətbiqlər bizdən aldıqları bütün məlumatları yoxlayır və bizə tam olaraq ehtiyac duyduğumuz reklamları təqdim edir. Google və Yandex kimi axtarış sistemlərində etdiyimiz hər bir axtarış bizə lazım olan şeylər haqqında təsəvvür yaradır. Hələlik hər şey normaldır. Bəs, klaviaturada yazaraq axtarmadığımız, ancaq dostlarla söhbət zamanı danışdığımız mövzular haqqında reklamlara nə demək olar? Dünyanın ən populyar tətbiqləri bizi 24/7 dinləyə bilərmi?

*Rəqəmsal dövrün gətirdiyi ən böyük problem:*

## Şəxsi məlumatların məxfiliyi

Mobil cihazlarımızın mikrofonları şəxsi həyatımızı tamamilə "əlçatan" edir Türkiyədə çox yayılmış olmasa da, Amazon Echo bizi dinləməklə istəklərimizi yerinə yetirmək üçün hazırlanmış bir proqramdır. OK Google və Apple Siri də oxşar məntiqlə işləyən proqramlardır. Heç vaxt yazılı şəkildə axtarmadığınız, ancaq telefonda və ya real həyatda danışdığınız şeyləri reklam kimi görməyə başlamısınız?

Həyatlarında heç vaxt pişiyi olmayan və bu barədə planlaşdırmayan cütlük sınaq məqsədilə pişik yemi haqqında danışır. Nəticə bizim proqnozlaşdırdığımız kimidir: pişik yemi reklamları.

Facebook daha əvvəl şəxsi məlumatların məxfiliyi ilə bağlı seçkilərdə manipulyasiya kimi ciddi ittihamlarla üzləşib və müxtəlif sahələrdə astronomik cərimələr ödəməli olub. Daha əvvəl Cambridge Analytica qalmaqalı ilə gündəmə gələn və ABŞ seçkilərində manipulyasiya etdiyi iddia edilən Facebook, son vaxtlar ödədiyi astronomik cərimələrlə adından söz etdirmişdi. Şəxsi məlumatların məxfiliyi ilə bağlı adekvat tədbirlər görmədiyi müəyyən edilən Facebook, Avropa Birliyi və Türkiyə və İngiltərə kimi bir çox ölkədən astronomik cərimələr aldı.





Google və Facebook telefon dinləmələrindən reklam məqsədləri üçün istifadə etmədiklərini və bu məlumatları üçüncü tərəflərə satmadıqlarını bildirirlər. Dünya nəhəngi sayılan bu iki şirkət, bütün ittihamlara baxmayaraq, məlumatların məxfiliyini pozmadıqlarını və "dinləmə" məlumatlarından reklam məqsədləri üçün istifadə etmədiklərini bildirirlər. Qeyd edək ki, Facebook-a bağlı şirkətlər arasında Instagram və WhatsApp kimi proqramlar da var.

***Ayşən Vəli***

# Azərbaycanın daha bir mədəni elementi UNESCO-nun siyahısında



**_Azərbaycan tarixi mədəni-milli ənənələri ilə zəngin dövlətdir. Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər də diqqətdən kənarda deyil. Təndir - Azərbaycan xalqının maddi-mədəni nümunəsidir. Təndir çörəyi qədim ənənəyə söykənir. Tarixi bizim era ilə üst-üstə düşür. Təndirdə çörək bişirmə ənənəsi qədim xalq sənətkarlığı nümunəsi kimi min illərdir nəsildən nəsilə ötürülüb._**



Azərbaycanlılar çörəyi müqəddəs hədiyyə bilib onu "Qurani-Kərim"lə eyni səviyyədə tuturlar. İnsanlar dua zamanı Tanrıdan onları çörəklə sınağa çəkməməsini istəyirlər, dəyərli qonaqları duz-çörəklə qarşılayırlar. Azərbaycanda çörək də, təndir də müqəddəs sayılır. Təbiətin yaranışı - günəşin qürubu, zəlzələlər zamanı insanlar təndirə doğru qaçardılar. İnanırdılar ki, Tanrı onları qoruyacaq. Paraqvayın paytaxtı Asunsion şəhərində keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 19-cu sessiyasında "Azərbaycanda təndir sənətkarlığı və çörəkbişirmə" adlı milli nominasiya faylının UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi qərara alınıb. UNESCO-nun Qiymətləndirici Orqanı tərəfindən müvafiq meyarlar üzrə müsbət rəy alan nominasiya faylına dair qərar dekabrın 3-də elan edilib. Bununla da, UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında yer alan elementlərimizin sayı 24-ə çatdırılıb. Qədim ənənələrə söykənən təndir sənətkarlığının Reprezentativ Siyahıya daxil edilməsi xalqımız üçün əlamətdar hadisədir. Sürətlə müasirləşən dünyada mədəni irsin qorunması və gələcək nəsillərə çatdırılması xüsusi önəm daşıyır. Xatırladaq ki, "Azərbaycanda təndir sənətkarlığı və çörəkbişirmə" adlı nominasiya faylı Mədəniyyət Nazirliyi tərəfindən 2023-cü ildə Xarici İşlər Nazirliyi vasitəsilə UNESCO-ya təqdim edilmişdir. Elementin siyahıya daxil edildiyi 19-cu Sessiyada Mədəniyyət Nazirliyi, UNESCO yanında Daimi Nümayəndəliyimiz və UNESCO üzrə Milli Komissiya təmsil olunur.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafında, dünyada təbliğində əvəzsiz xidmətləri vardır. Azərbaycanın Birinci Xanımı ölkəmizdə müntəzəm olaraq keçirilən müxtəlif beynəlxalq mədəniyyət tədbirlərinin və festivalların təşkilində mühüm rol oynayır. Beynəlxalq muğam festivalı və muğam ifaçılarının müsabiqəsi, M.Rastropoviç adına, eləcə də D.Şostakoviçin və Bülbülün yubileylərinə həsr edilmiş beynəlxalq festivallar, Qəbələ Musiqi Festivalı, Aşıqların Beynəlxalq Festivalı kimi tədbirlər məhz Mehriban Əliyevanın yaxından dəstəyi ilə həyata keçirilib. Bakıda Beynəlxalq Muğam Teatrının, Müasir İncəsənət Muzeyinin binaları tikilib, açıq səma altında "Qala" arxeoloji-etnoqrafik muzey kompleksi yaradılıb.




Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyətini xüsusi qeyd etməliyik. Azərbaycanın maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi böyük nailiyyət kimi tariximizə yazıldı. Belə ki, hazırda muğam ifaçılığı sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılığı sənəti, "Kəlağayı simvolizmi və ənənəvi sənəti" və s. YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ Atüstü Oyun ənənəsi isə YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alması Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlılığını diqqətə çatdırır. Sözsüz ki, sadaladığımız nadir irsin bu siyahıya daxil edilməsində Heydər Əliyev Fondunun rolu xüsusidir.



**_Nəzakət ƏLƏDDİNQIZI_**

---



**MƏTANƏT**

## Qadınlarla kişilər arasında ayrı-seçkiliyin müəllifi kimdir?..

**_Bəlkə də dünya binə olandan qadınlara da onların əks cinsinə baxıldığı kimi baxılsaydı, heç ayrı-ayrı zamanlarda qadın hüquqları, haqları və qadınların müdafiəsi ilə bağlı digər günlərin yaranmasına, təsis olmasına ehtiyac da qalmazdı. Lakin bu, bizim istəyimizdən asılı olmayaraq heç də belə olmayıb._**

Nədənsə hər ikisi yer üzərinə Allah tərəfindən bəxş olunan, hər ikisini də ana dünyaya gətirən, hər ikisinin iki valideyninin olması şərt olan qadın və kişi arasında zamanın bütün mərhələlərində fərq olub. Onlar arasına ayrı-seçkilik qoyulub.

Qadın uşaq saxlamalı, evin işlərini görməli, susmalı, istəyini bildirməməli, işləməməli, insanlar arasında görünməməli və sair kimi qadağalar bineyiqədimdən onların hüquqlarını pozan amillər arasında olub. Lakin bütün bunların heç biri kişilərə şamil edilməyib.

Maraqlıdır, görəsən dünyanın ən başlanğıcında qadınlarla kişilər arasındakı bu ayrı-seçkiliyin müəllifi kim olub? Kimin ağlına bu fikirlər gəlib. Bunlar nədən qaynaqlanıb? Nə üçün iki insan bir evdə bu qədər fərqli şəkildə yaşayıb? Nə üçün iki cinsin nümayəndələri cəmiyyətdə bu qədər ayrı-seçkiliyə məruz qalıb?

Bütün bunları təqvimdə 5 dekabr - Dünya Qadın Haqları Gününü görərkən düşünürəm. Və düşünməmək də mümkün deyil. 5 dekabr Türkiyədə 1934-cü il dekabrın 5-də Mustafa Kamal Atatürk tərəfindən qadınlara seçmə və seçilmə haqqı verilib. O tarixdən bəri bu xüsusi gün Türkiyə və dünyada Dünya Qadın Haqları Günü kimi qeyd edilir. Türkiyədə qadınlara ən erkən seçmə və seçilmə haqqı verən ölkələr arasında yer alır. Daha sonra isə digər ölkələrdə də müxtəlif vaxtlarda qadınlara seçmək və seçilmək hüququ verilib.

Maraqlıdır, bəs həmin tarixə qədər qadın nə üçün seçə və seçilə bilməzdi? Nə üçün bunları kişilər edə bilərdi, lakin qadınlar yox? Saymaqla bitməyən qadın hüquq və azadlıqlarını böyük qürur və sevinclə qarşıladığımız günümüzdə həm də onu düşünürəm ki, bütün dünya əsrlərlə qadınların qarşısında bir günah yaşayıb.

Əgər bu gün qadın seçə və seçilə, yüksək vəzifələrdə işinin öhdəsindən gələ bilirsə, deputat kimi fəaliyyət göstərirsə, müəllim, həkim, jurnalist. mühəndis və sair yüzlərlə sənətin sahibinə çevrilə bilirsə, çox vaxt da öz işini kişilərdən dəfələrlə yaxşı icra etməyi bacarırsa, bu, yüzilliklər öncə mümkün deyildimi?

Mümkün idi. Tarixə nəzər salarkən çoxsaylı ağıllı, qəhrəman qadınlarla rastlaşırıq. O qadınlar ki, kişilər həmişə onların ağlından, məsləhətindən istifadə ediblər. Qadınlar müdrikliyi, savadı, biliyi ilə evdə övladlarını sabahın ən öndə olan adamlarına çeviriblər. Səslərini çıxara bilməsələr də, adam içərisinə çıxmağa izinləri olmasa da, bəzi hallarda üzləri belə görünməsə, bəzi hallarda başlarını yuxarı qaldırmağa qorxsalar da, onlar hər zaman evlərinin xanımı olublar. Həm evin saysız işini zərif çiyinlərinə götürüblər, həm də övlad yetişdirmək işini.

Beləliklə, cəmiyyətin hər zaman aralarına ayrı-seçkilik qoyduğu kişiləri həmin qadınlar dünyaya gətirib, tərbiyə ediblər. Lakin nədənsə biri hər zaman öndə olub, digəri çox arxada.

Şükürlər olsun, bu günlərə. Yaxşı ki, haqq yerini tapdı, qadınlar da haqlarına çatdı. Dünyadan öz dünyamıza-ölkəmizə qayıdırıq və qürurla deyirik ki, 1918-ci ildən -artıq 100 ildən çoxdur ki, qadınlara kişilərlə eyni hüquqlar verilib. İndi ölkəmizdə qadınlar seçə-seçilə, ən yüksək vəzifələrdə çalışa bilir.

Nə gözəldir qadınları haqları və haqları olanlarla birgə görmək. Çünki bütün hüquq və azadlıqlar qadınların da hüququdur.

# Gürcüstanın “ukraynalaşdırılması”

## *Kollektiv Qərb bu ölkədə vətəndaş müharibəsini qızışdırır*

Tbilisidə əsl vətəndaş müharibəsi xəyalı dolaşır. Qərb ölkənin legitim hökumətini devirmək, 2014-cü ildə Ukraynada olduğu kimi NATO-ya meylli xunta qurmaq və Rusiyaya qarşı ”ikinci cəbhə” açmaq, regionda söz sahibi olmaq, dəhlizlərə nəzarət etmək niyyətindədir. Qərb Gürcüstanın daxili işlərinə getdikcə daha çox müdaxilə edir. Parlamentin diplomatik, sülh tərəfdarı gündəliyinin həyata keçirilməsinə mane olmaq cəhdi ilə Qərb ölkələri ciddi sosial böhrana səbəb olan son dərəcə şiddətli etirazları maliyyələşdirir. Aydındır ki, Qərb 2014-cü ildə Ukraynada olduğu kimi, ölkənin qanuni hökumətini devirmək, xunta qurmaq niyyətindədir.Tiflisdə zorakı etirazçılar parlament seçkilərində qalib gələn və bir sıra mühafizəkar və millətçi islahatlar aparan ”Gürcü Arzusu” partiyasının siyasətinə etiraz etmək üçün polis əməkdaşlarına hücum edir və hökumət binalarına basqın etməyə çalışırlar. Gürcüstanın milli maraqlarını Qərbin müdaxilə planlarından üstün tutduğu üçün ”Gürcü Arzusu” haqsız yerə ”rusiyapərəst” olmaqda ittiham olunur. Əsas tədbirlər sırasında xarici QHT-lərin fəaliyyətinə məhdudiyyətlərin tətbiqi, Aİ-yə üzvlüklə bağlı danışıqların 2028-ci ilə qədər dondurulması və anti-Rusiya sanksiyalarına qoşulmaqdan imtina etməkdir. Aydındır ki, Aİ və NATO Gürcüstanın siyasi administrasiyasından məyusdur və arzuolunmaz rejimi dəyişmək üçün mümkün olan hər şeyi edir.

Qərb Gürcüstanla xüsusilə maraqlanır, çünki onun bir vaxtlar Rusiya ilə hərbi münaqişəsi olub. Aİ NATO-nun Rusiyaya qarşı müharibəsində ”ikinci cəbhə” açacaq separatçı respublikaları ”geri qaytarmaq” cəhdi ilə Abxaziya və Cənubi Osetiyada hərbi əməliyyatları bərpa etmək üçün Tbilisiyə lobbiçilik edir. Beynəlxalq təzyiqlərə baxmayaraq, parlament uğurlu müqavimət göstərdi və Moskva ilə hər hansı münaqişəyə qoşulmaqdan imtina etdi, buna görə Gürcüstan siyasi müxalifətinin arxasında duran qərbyönlü lobbiçilər tərəfindən kəskin şəkildə pislənildi.”Gürcü arzusu” 2023-cü ilin yayında Ukrayna Silahlı Qüvvələrinin əks-hücumuna kömək etmək üçün Rusiyaya qarşı ”ikinci cəbhə” açmaqdan imtina etdi, bu da Qərb nöqteyi-nəzərindən bağışlanmaz idi. Qərb Ermənistanı Rusiyanın ”təsir dairəsindən” ”çıxardı”. ”Gürcü arzusu” Qərbin ”kuklası” olmaq istəmir, vətənpərvərdir. Buna görə də Qərb indi onu özünün düşməni hesab edir.Qərbyönlü müxalifət Gürcüstanda ”rəngli inqilab” təşkil etməyə çalışır. Kütləvi etirazlar xarici kəşfiyyat xidmətində olan xüsusi ”təşviqatçılar” tərəfindən qızışdırılır və bu, şiddətli toqquşmalara səbəb olmaqdadır. Ukrayna və NATO bayraqları və simvolları küçələrdə tez-tez görünür və etirazçılar tez-tez Ukrayna milli himnlərini və mahnılarını oxuyurlar ki, bu da gürcü dissidentlərinin və onların Qərb tərəfdarlarının əsl ideologiyasını açıq şəkildə göstərir.Bildiyiniz kimi, Gürcüstan müxalifətinin əsas lideri ölkənin hazırkı prezidenti, Fransada anadan olan Salome Zurabişvilidir. Fransanın Tbilisideki keçmiş səfiri Salome Zurabişvili 2003-cü ilin rəngli inqilabından sonra Gürcüstan vətəndaşı olub, daha sonra prezident və ölkənin aparıcı Avropayönlü lobbiçisi olub. İndi Zurabişvili parlament seçkilərinin nəticələrini tanımaqdan imtina edir və dövlət başçısının səlahiyyət müddəti başa çatdıqdan sonra vəzifəsini tərk etmək niyyətində olmadığını bəyan edir.Zurabişvili və baş nazir İrakli Kobaxidze açıq qarşıdurmadadır. Hökumətin başçısı suveren və mühafizəkar siyasətləri müdafiə etdiyi halda, Fransa əsilli prezident Gürcüstanda Qərb maraqlarının əsas müdafiəçisidir və hazırda ölkənin milli təhlükəsizliyini təhdid edən iğtişaşların arxasında duran əsas şəxsdir.

”Mən sizinlə fəxr edirəm, mən Gürcüstanla fəxr edirəm və onun Avropa gələcəyini görürəm. Mən sizin prezident olaraq qalıram, legitim parlament yoxdur, ona görə də qeyri-legitim parlament yeni prezident seçə bilməz, ona görə də inauqurasiya ola bilməz və mənim mandatım qanuni olaraq seçilmiş parlament olana qədər davam edəcək. Məni əvəz etməli olanı qanuni olaraq seçəcək, mən sizinləyəm və sizinlə olacağam”, - o, sosial şəbəkələrdə polisə hücum edən ”etirazçılara” dəstək yazıb.Nəticədə Qərb ”Gürcüstan üçün Maydan” istəyir. Məqsəd bu Qafqaz ölkəsini ”Ukraynalaşdırmaq” və onu NATO-nun Rusiyaya qarşı ”müharibəsində” müttəfiq etməkdir. Qanuni hökumətin təzyiqlərə davam etmək gücünə sahib olub-olmayacağını söyləmək hələ tezdir, lakin böhranın yekun nəticələrindən asılı olmayaraq, yaxın gələcəkdə vəziyyətin əhəmiyyətli dərəcədə gərginləşəcəyi ehtimalı var.





### Tarix təkrarlanır, amma bu dəfə Qafqazda

Gürcüstandakı vəziyyət təhlükəli şəkildə on il əvvəl Ukrayna hadisələrini xatırladır. Aİnin dəstəyi ilə fəaliyyət göstərən iqtidarla müxalifət arasında qarşıdurma səngimir. Qərb Gürcüstana getdikcə daha çox təzyiq göstərir, artıq Ukraynada sınaqdan keçirilmiş model üzrə işləyir. Gürcüstanda vəziyyət xoşagəlməz dərəcədə tanış görünür. Çox şey 2013-cü ilin qışında Ukraynanı xatırladır. Xatırladaq ki, Ukrayna prezidenti Viktor Yanukoviç o zaman bəyan etmişdi ki, Ukrayna Avropa İttifaqına daxil olmaq planlarından imtina edir və əvəzində Rusiyaya tərəf yönələcək. O, bunu Ukraynanın strateji və iqtisadi maraqları ilə izah edib.

Həmin gün nümayişlər başladı və hər gün daha çox nizamsızlaşdı, xüsusən də Kiyevin mərkəzi meydanında - Maydanda. Tezliklə silahlar işə düşdü. Yanukoviç devrildi və Ukrayna heç vaxt çıxa bilmədiyi dərin böhrana girdi. Ukraynadakı hazırkı silahlı münaqişə 2013-cü ilin sonu - 2014-cü ilin əvvəllərində baş verən dramatik hadisələrlə birbaşa bağlıdır.Gürcüstan indi bir çox cəhətdən bu ssenarini təkrarlayır. Hakim millətçi ”Gürcü arzusu” partiyası bu yaxınlarda keçirilən seçkilərdə qalib gəlib, lakin müxalifət nəticələri tanımaqdan imtina edir. Əvvəldən müxalifətlə iqtidar arasında ziddiyyətlər o qədər əhəmiyyətli, siyasi və geosiyasi baxımdan keçilməz idi ki, seçkinin nəticəsi nə olursa olsun, dinc nəticəni gözləmək çətin idi. Dərin parçalanma yaranıb ki, biz bunu regionun digər ölkələrində, məsələn, Moldovada görürük və Rumıniyada da buna bənzər bir şey tədricən yaranır.Gürcüstan məsələsində açıq-aşkar qərbyönlü mövqedən çıxış edən və Gürcüstan üçün başqa variantlarla, o cümlədən geosiyasi oriyentasiyaya daha neytral yanaşma ilə razılaşmayan müxalifət var. Hakim partiyanın üzvləri aydındır ki, bu sərt qərbyönlü mövqeyə qarşı xəbərdarlıq edirlər, onların fikrincə, bu, Gürcüstanı artıq Ukraynada baş vermiş hərbi fəlakətə gətirib çıxara bilər, xüsusən də indiki müxalifət hakimiyyətə gəlsə.

Amerikanın əsrin əvvəllərində hazırladığı planları məhz bunu nəzərdə tutur. Corc Buş Gürcüstanı NATO-ya daxil etmək üçün bir sıra konkret addımlar atdı və Rusiya buna cavab olaraq 2008-ci ildə Gürcüstana hücum etdi. Müharibə cəmi iki həftə davam etdi və rusdilli əhalinin yaşadığı iki Gürcüstan rayonunun ayrılması ilə başa çatdı. Rusiya Abxaziya və Cənubi Osetiyanı müstəqil dövlət kimi tanıyıb. Bu müdaxilənin daha geniş konteksti aydın idi: Rusiya cənub sərhədlərində NATO-nun kök salmasına imkan verə bilməz.O vaxtdan bəri Gürcüstan çoxlu siyasi böhranlar yaşadı, lakin sonda iki qütb kristallaşdı. Bu gün Gürcüstan bölünmüş ölkədir, onun bir hissəsi Qərblə, o cümlədən Avropa İttifaqı və NATO ilə maksimum inteqrasiyanın tərəfdarıdır, digər hissəsi isə güclü dövlətlərin toqquşduğu bir vaxtda Şərqə istiqamətlənməyə və ya bu və ya digər formada neytrallığa üstünlük verə bilər. ”Gürcü Arzusu” partiyası media üzərindən nə edirsə etsin, tamamilə Rusiyayönlü deyil. Üstəlik, Avropa İttifaqına üzvlük prosesi tam dayandırılmayıb, sadəcə, dörd illiyinə dondurulub. Ümumiyyətlə, bu, ağlabatandır, çünki dörd ildən sonra, Ukraynada silahlı münaqişə başa çatacaq və Avropanın siyasi arenası çox güman ki, çox dəyişəcək. Aydındır ki, ən pis ssenaridə dörd ildən sonra hətta Avropa İttifaqı da mövcud olmaya bilər. Əhalisinə görə Xorvatiya ilə müqayisə olunan Gürcüstan kimi kiçik ölkə (3 milyon 760 min və 3 milyon 853 min) üçün ”vaxt almaq” mənasızdır, çünki kəskin qərarlar onu hətta müharibəyə apara bilər. Amma Ukraynadan fərqli olaraq, Rusiyanın hücumuna məruz qalacağı təqdirdə özünü müdafiə edə bilməyəcək.Müxalifət isə danışıqların təxirə salınması ilə qətiyyən razılaşmır və bunu faciəvi və qəbuledilməz dönüş kimi qiymətləndirir. Müxalifətçilər iddia edirlər ki, ”Gürcü arzusu” ölkəni ”Rusiya təsir orbitinə” sürükləyir və indi bununla bütün gücləri ilə mübarizə aparmağa hazırdırlar. Ancaq Maydan planını da unutmurlar. Müxalifət hadisələrin hansı istiqamətdə inkişaf etdiyini görür. Artıq küçələrdə vəziyyətin nəzarətdən çıxdığını sübut edən səhnələr var. Ötən gecə Tbilisidə çəkilmiş kadrlar on il əvvəlki Maydanla demək olar ki, eynidir.Etirazçılar polis əməkdaşlarına hücum edir, küçə və yolları bağlayır, molotov kokteyli atırlar. Onlara gözyaşardıcı qaz və su şırnaqları ilə cavab verilir. Son məlumatlara görə, 250-dən çox adam saxlanılıb.

Bu gün Tbilisidə çox şey narıncı inqilabı xatırladır. Yeri gəlmişkən, bu oxşarlığı sırf Rusiya iddia etdiyi üçün nəzərdən qaçırmaq olmaz. Bu cür inqilabların yaxın tarixinə nəzər salmaq kifayətdir və onların hamısının bir-birinə bənzədiyi məlum olacaq. Etirazçılar bir tərəfdən getdikcə daha sərt davranırlar. Getdikcə daha çox asayiş keşikçisi əziyyət çəkir. Bu arada, Qərb mediası etirazçılara dəstəyini artırır, onların hərəkətlərinə tam və qeyd-şərtsiz haqq qazandırır və ”dinc nümayişçilərə hücumlar” barədə dəlillər toplayır, baxmayaraq ki, hadisə yerindən çəkilmiş görüntülər tamam başqa əhvalatdan bəhs edir.Bu taktika artıq bir neçə dəfə tətbiq olunub. Amma reallıqda o, yalnız Ukraynada öz istiqamətini dəyişməyə vaxt tapmayanda və hərbi xaosa düşdükdə ”işə yarayıb”.

Zaman dəyişib və Qərbin NATO vasitəsilə hərbi nəzarəti genişləndirmək üçün atdığı hər yeni addım indi Rusiyanın son dərəcə mənfi reaksiyasına səbəb olur. Baxmayaraq ki, bir vaxtlar üç keçmiş sovet sosialist respublikası praktiki olaraq heç bir etiraz olmadan NATO-ya daxil olmuşdu: Litva, Latviya və Estoniya.Kremlin sözçüsü Dmitri Peskov deyib ki, ”Gürcüstanda baş verən hər şey onun daxili işidir” və Rusiya müdaxilə etmək niyyətində deyil, çünki Gürcüstan hakimiyyəti vəziyyəti sabitləşdirmək üçün tədbirlər görür. Gecə minlərlə etirazçı yenidən parlament binası qarşısına toplaşıb və çevik polis qüvvələri dünən gecə olduğu kimi, pirotexniki vasitələrdən silah kimi istifadə edən etirazçıları su şırnaqları ilə dağıdıb. Fransada gürcü ailəsində anadan olan və əvvəllər Gürcüstanda Fransaya xidmət edən 72 yaşlı prezident Salome Zurabişvili deyib ki, Qərbin köməyi ”bu böhrandan yeganə siyasi çıxış yoludur”. O, hökumətin hərəkətlərinə etiraz olaraq istefa verən ”çox cəsur” məmurları, o cümlədən dörd səfir və Xarici İşlər Nazirliyinin baş məşəçisini tərifləyib.ABŞ və Aİ ”Gürcüstanda demokratik defisit” adlandırdıqları şeydən narahat olduqlarını bildiriblər. Bu il ”xarici agentlər” qanunu qəbul edən və LGBT hüquqlarını məhdudlaşdıran hökumət Gürcüstanı kənar təsirlərdən qorumaq və Gürcüstanla Rusiya arasında Ukrayna tipli müharibənin qarşısını almaq üçün addımlar atdığını deyir. Baş nazir İrakli Kobaxidze müxalifəti konstitusiya quruluşunu devirməyə yönəlmiş ”koordinasiya edilmiş zorakılıq”da ittiham edib. Bazar ertəsi keçirilən mətbuat konfransında o, böhrana son qoymaq üçün müxalifətlə danışıqların mümkünlüyünü istisna edib.

Gürcüstan Daxili İşlər Nazirliyi bazar və bazar ertəsi keçirilən etiraz aksiyaları zamanı 21 polis əməkdaşının yaralandığını, iğtişaşlar başlayandan bəri ümumilikdə 113 hüquq-mühafizə orqanının yaralandığını bildirib. Çoxlu etirazçı da xəsarət alıb. Litva Baltikyanı qonşuları Latviya və Estoniya ilə həmrəylik nümayişi olaraq, milyarder və hakim ”Gürcü Arzusu” partiyasının donoru Bidzina İvanişvilinin, habelə Gürcüstan Xarici İşlər Nazirliyinin on əməkdaşının öz ərazisinə girişini qadağan edib.Avropa İttifaqının yeni xarici işlər naziri Kaja Kallas deyib ki, sanksiyalar etirazçılara qarşı zorakılıq olduğu üçün Aİ-nin Gürcüstana qarşı tətbiq edə biləcəyi variantlardan biridir. Gürcüstanda nə hakimiyyət, nə də müxalifət razılığa gəlmək istəmədiyi üçün vəziyyət daha da gərginləşə bilər. Müxalifət əmindir ki, o, Avropa İttifaqından olan müttəfiqlərinin dəstəyindən istifadə edərək, mövcud hakimiyyəti devirmək üçün kifayət qədər güclü təzyiq göstərə bilər. Bütün bunlar Ukrayna ssenarisini çox xatırladır, lakin Şərq və Qərb arasında seçim etmək üçün getdikcə daha çox təzyiq altında olan kiçik Gürcüstanda bunu təkrarlamaq mümkün deyil. Artıq sınaqdan keçmiş modelə görə, belə şeylər adətən pis və faciəli şəkildə bitir.

**V.VƏLİYEV**

# Toka verilən BROYLER TOYUQLAR

Toyuqlarda istifadə edilən antibiotiklər, hormonlar və komponentlər haqqında çoxlu fikirlər var. Bəs, iddialar realdırmı?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Toyuq əti protein qəbuluna diqqət yetirən bir çox idmançı üçün əla mənbədir. Bu münasib qiymətə, asanlıqla əldə edilə bilən və dadlı məhsuldur. Bu üstünlüklərə baxmayaraq, insanların ağlına tez-tez gələn bir şey var. Mövzumuz toyuqların tərkibində olan antibiotiklərin, hormonların və digər komponentlərin insan sağlamlığına təsiridir.

## Broyler toyuq: necə böyütmək olar?

İlk növbədə şirkətlər cücə alır. Cücələr tez-tez daha yaxşı böyümək üçün sürətlə böyüyən cinsləri keçərək yaradılan bir genetik quruluşa malikdirlər. Bu cücələr böyük, havasız və dar yemliklərə yerləşdirilir. Əgər toyuq kökəlmə (yəni ət) üçün qidalanırsa, toyuqun daha sürətli böyüməsi üçün mümkün qədər az hərəkət etməsi vacibdir. Bu səbəbdən, bütün tutumu toyuqlarla doldurmaq və heyvanların hərəkət etməsinə yer buraxmamaq lazımdır.

Bu dövrdə toyuqların qidalanması tənzimlənir. Ot və həşərat kimi toyuqların təbii pəhrizində olan hər hansı qida bu yemliklərə daxil ola bilməz. Toyuqlara istehlak üçün yalnız xüsusi hazırlanmış yüksək kalorili qidalar təklif olunur.

Sonra antibiotiklərin istifadəsi işə düşür.





Bu qədər heyvanın bir anda xəstələnməsini istəməyən istehsalçılar antibiotiklərdən istifadə etməyə başlayandan sonra toyuqların daha sürətlə böyüdüyünü gördükləri üçün toyuqlar üçün antibiotik istifadə etmək vərdişi daha da güclənir.



## Toyuqlarda antibiotik istifadəsi

Bəli, antibiotiklər toyuqlarda istifadə olunur. Bunun səbəbi əslində yoluxucu xəstəliklər deyil. Çünki yoluxucu xəstəliklər üçün antibiotiklərin minimal istifadəsi belə kifayət edəcək. Amma toyuqlarınızı erkən yetişdirmək istəyirsinizsə, onların bağırsaq florasını məhv etməlisiniz.

İnsanlarda olduğu kimi, toyuqlarda da bağırsaq florasının zədələnməsi onların kökəlməsinə və sürətlə inkişaf etməsinə səbəb olur. Bu vəziyyəti yaratmaq üçün onlara intensiv antibiotiklər verərək hormonal sistemini pozmaq kifayətdir. Qeyd edək ki, dünyada istifadə edilən antibiotiklərin təxminən 80%-i heyvanlara verilir.

Toyuqların böyümə cədvəlini görürsünüz. Əvvəllər 56 gündə bir kiloqram çəki ala bilməyən toyuqlar indi eyni dövrdə dörd kiloqramı keçir. Qəribə və qəddar deyilmi?

Toyuqlar o qədər sürətlə böyüyürlər ki, onların skelet sistemi çox vaxt bu böyüməyə uyğunlaşa bilmir və sümük qırıqları baş verir. Nəticədə 10-15 il ömür sürən bu gözəl heyvanlar təxminən iki aylıq olanda kəsilərək süfrənizə gəlir.

## Azərbaycan

Azərbaycanda son illərdə toyuq əti istehlakının digər ətlərlə müqayisədə sürətlə artması müşahidə edilir. Bunun başlıca səbəbi son illərdə mal və qoyun ətinin daha çox bahalaşmasıdır.

Qoyun və keçi əti istehlakında da artım var. 2013-cü ildə 72,1 min ton olan istehlak miqdarı 2023-cü ildə 93,1 min tona çatıb. On il ərzində qoyun və keçi ətinin istehlak miqdarı 21 min ton, yəni 29,1 faiz artıb.

Müqayisə edilən onillik dövrdə quş əti istehlakı daha çox artıb. 2013-cü ildə 95,5 min ton olan istehlak miqdarı 2023-cü ildə 166,2 min tona çatıb. Ötən müddətdə Azərbaycanda toyuq ətinin istehlakı 70,7 min ton və ya 74 faiz artıb.

Üç məhsul növünün müqayisəsindən görünür ki, ölkə əhalisi son 10 ildə toyuq alışını xeyli artırıb. Ümumilikdə, bu dövrdə əhalinin ət istehlakında artım 124,3 min ton olub ki, bunun da 57 faizi yalnız toyuq ətinin hesabına olub. Məhsul qrupları üzrə ət istehlakındakı artım dinamikası göstərir ki, 2024-cü ildə, ən geci 2025-ci ildə ən çox istehlak edilən ət toyuq əti olacaq.

Sənaye quşçuluğu bir sözlə belədir. Bəs bu vəziyyət sağlamlığınıza necə təsir edir? Gəlin onu araşdıraq.

## Toyuq istehlakı və sağlamlığa təsiri

Toyuq əti yeyən kimi heç bir fəsad yaşamırsınız. Belə olanda insanlar zərərləri görməməzlikdən gəlirlər. Ancaq uzunmüddətli təsirləri görməzdən gəlməmək lazımdır.

## Təsirləri səbəblərlə sadalasaq, ən pisləri aşağıdakı kimi görünür:

Antibiotiklər: Toyuqlarda istifadə edilən antibiotiklər həm bakteriyaların müqavimətini artıraraq, həm də antibiotiklər insan orqanizminə daxil olduqda faydalı bakteriyaları zədələməklə öz təsirini göstərir. Bu vəziyyət yalnız faydalı bakteriyalara deyil, hormonal sisteminizə də zərər verir.

**Arsen:** İnsan orqanizmi üçün çox zəhərli bir maddə olan arsen nevroloji xəstəliklərdən xərçəngə qədər bir çox problem yarada bilər. Həm də onun ağır metal olması onun xaric edilə bilməyəcəyi və bədəninizdə davamlı olaraq yığılması deməkdir.

Toyuqlarda daha çox qidalanma istəyi və daha yaxşı kilo alması yaradacağı düşünülən arsen xaricdə düşündüyünüzdən daha çox istifadə edilir.

Bunlarla yanaşı, toyuqçuluqda istifadə edilən bir çox fərqli və sirli maddələr var.





## Nəticədə, bir çox zərərli maddələrin bədəninizə zərər verəcəyi bir həqiqətdir. Bəs biz necə qorunacağıq?

Yuxarıda qeyd etdiyim təsirlər realdır. Əslində, bu sadəcə olaraq bizə toyuq istehlakının zərərli ola biləcəyini göstərir. Sağlamlıq o qədər də ucuz bir şey deyil ki, ehtimallara əsaslansın və hər bir riski qiymətləndirməlisiniz.

”Fast food” və sənaye quşçuluğu demək olar ki, qardaş olub. Bunun səbəbi ucuz ət verən sənaye və onu nisbətən ”dadlı” formada insanlara satan sənayedir. Bu səbəbdən hazır toyuqdan qorxursunuzsa, ”fast food” sizin üçün deyil.

Xüsusən də risklər bu qədər böyük və aşkar olubsa, işlər daha da pisləşir. Amma böyük problem var. Keyfiyyətli zülal istehlakı üçün resurslar çox məhduddur və bir çox insanın (xüsusilə idmançıların) toyuq əti istehlak etməsi lazımdır.

*Ardı Səh. 12*

# Toka verilən
# BROYLER TOYUQLAR

Əvvəli Səh. 11

Qırmızı ətin qiyməti çox bahadır və heç də hər kəsin əti almaq imkanı yoxdur. Bu vəziyyətdə ağ ət yeganə həll yolu olur.

## Hinduşkaya üstünlük verin

Ağ ət üçün daha az işlənmiş hinduşkaya üstünlük vermək olar. Çox vaxt hinduşkanın böyüməsi prosesi daha uzun və sərfəli deyil. Bu səbəbdən sənaye istehsalı üçün uyğun deyil və böyük şirkətlər biznesə cəlb edilmir.

## Kiçik ölçülü toyuq almaq lazımdır

Ümumiyyətlə, kütləvi istehsal şirkətləri toyuqları tam ölçüyə çatmadan kəsmirlər. Kiçik toyuqların bu səbəbdən emal olunma ehtimalı azdır.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov: "Üç cür toyuq ətindən istifadə olunur: Kənd toyuğu, yəni tam azad toyuqlar, qismən azad toyuqlar, bir də broyler toyuqları. Broyler toyuqları əlbəttə azad deyil-



lər. Kənd toyuğu, və yaxud azad toyuqlar tam azaddırlar, istədikləri qida ilə qidalanırlar, yiyəsi nə verir onunla qidalanırlar və s. Yarım azad toyuqlar qapalı saxlanılır, lakin açıq havada olurlar, broyler toyuqları kimi tam qapalı saxlanılmır. Əksər hallarda bu cür toyuqlar da broyler toyuqlarının yediyi yemlə yemlənir. Lakin ənənəvi arpa-buğda ilə də yemlənir.

Broyler toyuqları tam qapalı şəraitdə saxlanılır. Broylerdə işləyən adamların bəzən evlərinə getməyə icazə verilmir, elə o ərazidə qalırlar. Çünki çox az bir bakteriya




**Kaynak:** Age-related changes in size of University of Alberta Meat Control strains unselected since 1957 and 1978, and Ross 308 broilers (2005).





gəlib düşərsə, minlərlə toyuq qırıla bilər və tam steril şəkildə nəzarət altında saxlanılır. Bunlar azad toyuqlardan fərqli olaraq 2-3 dəfə tez lazım həddə, çəkiyə çatdırılır.

Onu da qeyd edim ki, dünyanın qida sənayesinin, yəni yer üzündəki olan əhalinin çox böyük bir hissəsini toyuqlar təmin edir, yumurtaları ilə və öz ətləri ilə. Əgər broylerlər olmasa demək olar ki, dünya əhalisinin indi mövcud olandan təxmin 3 dəfə çoxu daha çox aclıq çəkər.

Qeyd etdiyim kimi, broyler toyuqları tam nəzarət altında olur, vaxtaşırı baytarlıq dərmanları vurulur və s. Yemlərində müəyyən kimyəvi maddələr olur və təəssüflər olsun ki, AQTA 2 il öncə Qida təhlükəsizliyi haqqında qanun qəbul olunanda onun 25-ci maddəsində broyler toyuqlarına genetik modifikasiya olunmuş yemlərin verilməsinə yaşıl işıq yandırdı. Azad İstehlakçılar Birliyi buna qarşı iş apardı. Lakin məndən sübut istədilər ki, mən sübut etməliyəm ki, bu cür yemi yeyən toyuqların əti insana zərər edər. Lakin mən onu sübut etməyə qadir deyildim və mən təklif etdim ki, onda bu malların üzərinə yazılsın ki, bunlar genetik modifikasiya olunmuş yemlərlə yemləşdirilib. Agentlikdə olan bir nəfər dedi ki, onda onu kim alar? İstehlakçının seçim hüququ var, istehlakçı məlumat almaq hüququna malikdir. Çox təəsüf ki, bu da gizlənilir.

Şübhəsiz ki, broyler toyuqları ciddi steril şəkildə saxlanıldığı üçün bu insanlarda müəyyən hormonal dəyişikliklər apara bilər, bu sualın cavabını həkimlər daha yaxşı bilərlər, bunu onlar deməlidirlər və əgər bu daim yeyilərsə mənfi nəticələr verə bilər. Üstünlükləri yalnız dünya əhalisini qida ilə təmin etmək məsələsidir".

Broyler toyuqlarına yumurta qoydurmaq üçün hər gün verilən dərmanlar kişilərin kişiliyini zəiflədir, sinələrinin süni böyüməsinə səbəb olur. Belə insanların prostat vəzlərində hiperplaziya iki dəfə çox olur. Amma xanımlar belə toyuqların yalnız kişilərə təsir etdiyini düşünməsinlər. Xeyr! Görün bu gün sinə və uşaqlıq xərçəngi nə qədər artıb. Qızlarda erkən menstruasiyanın artmasına toyuqların yumurta qoyması üçün verilən dərmanlar səbəb olur.

Ümumiyyətlə, ginekoloji xəstəliklər və sonsuzluq çox artıb və artmaqda davam edir.

## Broyler toyuq

Broyler toyuqlarını şoklayırlar. Toyuğu kəsməzdən əvvəl onu elektrik cərəyanı verirlər. Bu zaman toyuğun bədənində təxminən 200 qram qan qalır. Bu, Qurani-Kərimimizdə bildirilən "Qan bizə haramdır" əmrinə ziddir. Bundan başqa, bəzi toyuqlar elektrik cərəyanına tab gətirə bilmədiklərindən ölürlər. Belə toyuqların başı da bismillahsız kəsilir.

Bir broyler toyuğunun 1 kiloya çatmaq üçün cəmi 1,7 kilo yem sərf etdiyini bilirdinizmi? Həm də bu, geni dəyişdirilmiş soyadan hazırlanmış yemdir. Bu toyuqlar o qədər arıq olur ki, tutanda sümükləri qırılır. Çünki sümüklər kifayət qədər bərkiyə bilmir.

Kənd toyuqlarından, yumurtalarından mümkün qədər faydalanmaq lazımdır. Əgər broyler toyuq yeməyə məcbursunuzsa, onu fasilələrlə yeməyə çalışın. Məsələn, ən azı bir həftə ara verməyə çalışın. Bu şəkildə yeyildikdə toyuğun kanserogen təsiri azalır və orqanizmin özü xərçəng riskinin qarşısını alır.

***Ayşən Vəli***





FELYETON

# Ana "CANLI"da, bala çılpaq...

Hə, sizə nədən söhbət açım, "Canlı"dan. Axı indi dəbdədir, Tiktokda canlı açmaq. Elə bu günlər həmin "Canlı"lardan birinin-başıbağlı bir qadının təsadüfən qonağı oldum. Qonağı oldum deyəndə ki, dedim görüm bu qadın camaata hansı bacarıqlarından söhbət açır. Gördüm yox, o, heç nə öyrətmir, elə hey danışır, qadınlarla söhbətləşir. Qadına Bakıdan, Bərdədən, nə bilim ta haralardan salamlar yağdırırlar. Biri yazır ki, məni tanıyırsan, Aytənin qızıyam, qadın da cavabında deyir ki, mən bir Aytən tanıyıram, ağbaş Aytən, onun qızısan? O biri tərəfdə də cavab verirlər ki, hə. Vəssalam, illərin həsrətliləri başlayır hal-əhvala...

Bir xeyli vaxtdan sonra "Canlı" sahibi başıbağlı qadın deyir ki, durum gətirim bir az paltar ütüləyim. Başlayır paltar ütüləməyə və bu barədə danışmağa. Deyir ki, qızlar, elə mən qız vaxtından beləyəm. Yuyuram-yuyuram, yığıram, sonra tökürəm qabağıma, düz üç saat ütüləyib qurtarıram. Beləliklə başlayır paltar ütüləməyə. Deməli, paltarı necə ütüləyir, mən deyim, siz də dinləyin. Bir əli ilə ağzına nə isə qoyur, yeyir, o biri əli ilə paltarı götürüb, hardan gəldi ütünü basır üstünə. Gözü isə harada, təbii ki, telefonda, yadına düşəndən-düşənə paltarı düz üzünə çevirib qatlayır qoyur kənara. Paltar da nə paltar, tamam qırış-quruş.

Arada uşaqların səsi gəlir. Ana onlara çığırır ki, ay bala, səsinizi kəsin. Aradabir ütünü qoyub o biri otağa keçir, uşaqları necə görürsə, deyir ki, ay sağ ölün, həmişə belə sakit olasınız. Aradabir də o biri otağa keçir və deyir ki, tumu çırtlayıb divanın üstünə tökməyin. Elə bu arada qızlardan biri sual verir ki, başını nə vaxtdan bağlayırsan, deyir ki, 2013-cü ildən. Sonra nə desə yaxşıdır, deyir ki, arada üç il açdım, iş tapa bilmirdim, ona görə. Sonra ailə qurdum, yenidən bağlandım. Bu arada uşaqlardan biri ekranda görünür. Görürəm ki, uşağın əynində paltar yoxdur, lütdür. Deyirəm, yazıq uşaq sən nə üçün çılpaqsan? Bəs sənə soyuq dəymir?..

Qadın da ki, bir tərəfdən yeməkdə, bir tərəfdən ünvanlanan suallara cavab verməkdə, bir tərəfdən də paltardır ki, ütüləməkdə, üst-üstə yığmaqdadır...

Söhbət davam edir, Nələr, nələr, nələr... Nə işimə qalıb. Bir kənardan dayanıb sakitcə dinləyirəm ki, görüm axı burada axırda düz-əməlli bir söz eşidəcəyəm, ya yox. Gördüm səbir kasam daşır, telefonu bağlayıb atdım bir kənara. Ancaq eşitdiklərimi və gördüklərimi gəlin görək bir tərəfə ata bildimmi? Əsla.

Dedim qoy başlayım yazmağa ey, yazmasam, ölərəm. Yazım ki, paylaşım, əsəblərim sakitləşsin. Yazdıqca da özözümə sual verdim ki, İlahi, görəsən 3 saata necə həftə boyu yuyulan paltarı ütüləmək olar? Deməli, qadın iş-gücünü buraxıb burada qadınlarla söhbət edir, aynan yığışan paltarı da 3 saata yalandan ütüləyib atır bir kənara, həm deyir ki, mən beləyəm, baxın... Vallah, halaldır bu qadının ərinə. Qəribə səbri var...

Başını arada bağlayıb, açmaq söhbəti isə tam bir başqa mövzu oldu. Anlaya bilmədim, bağlanmaq nədir, arada açmaq nədir, sonra bir də bağlanmaq nə deməkdir. Anlayan olarsa, mənə də anlatsın, xahiş edirəm.

Qaldı gördüyüm digər mənzərə, uşağın çılpaqlığına. Yazıq uşaq, nə etsin ki, ananın başı "Canlı"ya qarışıb, o da lüt qalıb. Soyuq dəyib xəstələnəndə bu uşağın halı necə olacaq, vallah, bundan əsla baş çıxarmadım...

Yaza-yaza da öz-özümə dedim ki, şükür ki, elə hövsələm bitdi, bu "Canlı"ya sonadək baxmadım. Yoxsa, inanın ki, dəli olmaq üzrə idim. Baxdığım müddətdə isə elə hey bunu öz-özümə dedim: Allah sənə rəhmət etsin, Molla Nəsrəddin. Niyə bu vəfasız dünya səni ağuşuna alıb apardı? Axı sən bizə dünənkindən daha çox lazımdın. Gəl, haralardasan, gəl, gör ki, yazmağa nə qədər mövzu var cəmiyyətimizdə. Gəlsən, görsən, deyərsən ki, baho, biz nə yazmışdıq ki, mövzu burdadır ey...

**Mətanət Məmmədova**

ŞƏRH EDİLDİ

# "Vəziyyət getdikcə gərginləşir"



"Artıq 5 gündür ki, Gürcüstan hakimiyyətinin qərarına, Avropaya inteqrasiyanın 2028-ci ilə qədər dayandırılması qərarına qarşı mitinqlər, etirazlar davam edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib. O bildirib ki, bu da çox böyük ərazini tutur: "Təkcə Tbilisidə yox, digər şəhər və rayonlarda, hətta dağ kəndində də buna qarşı etiraz edirlər. Bunun da əsası var. Çünki Gürcüstan uzun illərdir ki, Avropa İttifaqına daxil olmaq üçün iş aparırdı. Eyni zamanda Gürcüstanın Avropa İttifaqına vizasız rejimi var. Gürcüstan gənclərinin çoxu Avropaya gedir, orada işləyirlər. Gürcüstanda elə də iş yerləri yoxdur. Avropa onlar



üçün həyat mənbəyidir. Ona görə də, onların indiki hakimiyyətinin Avropaya inteqrasiyanı dayandırması əhali üçün çox ağır xəbər oldu. Bundan istifadə edən, Avropa tərəfindən maliyyə dəstəyi alan radikal müxalifət əhalini meydanlara çağırdı. Bunun da başında müxalifəti dəstəkləyən Gürcüstanın prezidentidir.

Salome Zurabişvili Fransada dünyaya gəlib, gürcü əsillidir. Sonra Saakaşvilinin dövründə Gürcüstana dəvət olundu, Xarici İşlər naziri təyin olundu, Gürcüstan vətəndaşlığı verildi. Ancaq bir ildən sonra o, Saakaşvilinin əleyhinə çıxdı. Hazırdakı hakimiyyətlə də onun yolları ayrılıb. Gürcüstan hakimiyyəti də onu Avropa İttifaqının xarici agenti kimi bildirir. Dekabrın 14-də Gürcüstanda Prezident seçkiləri keçiriləcək. Artıq hakimiyyətin namizədi var. Ondan sonra da 29 dekabrda Salome Zurabişvili öz iqamətgahını boşaldacaq deyə bildirirlər.




Bu etiraz mitinqlərində həbs olunanlar var. Vəziyyət getdikcə gərginləşir. Buna rəğmən də ABŞ Gürcüstanla strateji müttəfiqlik planını dayandırdı. Artıq bəyan etdilər ki, Gürcüstanla strateji aktlarını dayandırırlar. Eyni zamanda Avropa İttifaqı da Gürcüstanda seçkilərin normal keçmədiyini və müxalifətə qarşı aparılan aksiyaların düzgün olmadığını bildirir. Yenidən seçki keçirilməsini tələb edirlər. Artıq Gürcüstan hakimiyyətində müəyyən qopmalar var, xarici işlər nazirinin müavini istefa verdi. Həm də Gürcüstanın 5 ölkədə səfiri Avropa inteqrasiyasının dayandırıldığına görə hakimiyyətə qarşı etirazını bildirib, istefa verdilər. Bunun düzgün qərar olmadığı ortadadır. Hesab edirəm ki, bu da hakimiyyətin törətdiyi çox böyük səhvdir".

"NATO-ya üzv olmaq Gürcüstan konstitusiyanın 78-ci maddəsində öz təsdiqini tapır. Konstitusiyadan götürülməmiş yeni hökumət formalaşan dövrdə belə bir açıqlama vermək yanan ocağa benzin tökmək kimi bir şeydir. Bu da çox böyük səhvdir. Hakimiyyət bunu düzgün anlamadığını bildirir. Bu mənada vəziyyət gərgindir. Nə ilə nəticələnəcəyini bilmək çətindir. Çünki vəziyyət hər gün dəyişir. Aksiyalar daha geniş ərazini tutur. Hesab edirəm ki, bu etirazların arxasında Avropa durur. Avropa etirazlar başlamamışdan əvvəl bildirdi ki, Gürcüstana ayrılan 100 milyon avronu müxalifətə göndərəcəklər. Müxalifət maliyyələşdirilir. Onlar da bundan istifadə edərək əhalini mitinqlərə səsləyirlər.



Daha ağır olan məsələ də ortaya qoyuldu. Prezident məktəblilərin də aksiyaya qoşulmasını istədi. Dünənki mitinqdə 13-15 yaşlı məktəblilərin olması televiziyada göstərilir. Bu da gələcəkdə ağır nəticələr verə bilər. Hesab edirəm ki, müxalifət və hakimiyyət görüşüb bu çətin vəziyyətdən Gürcüstanı çıxarmalıdırlar" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

# Emmanuel Makron öz xalqı ilə düşmənçilik edir

***Belə bir iddia ilə ölkənin "BFMTV" televiziya kanalı çıxış edib***





Sağ Mərkəzçi Respublikaçılar Partiyasının nümayəndəsi Mişel Barnyenin baş nazir təyin edilməsi Fransada E.Makrona qarşı nifrət hissini daha da alovlandırıb. Çünki Mişel Barnyen qatı cinayətkardır, belə demək mümkünsə mafiya rəhbəridir. O həm də ölkədə rüşvətxor, korrupsioner olaraq tanınır. Fransızların qənaətincə Makronun Mişel Barnyeni baş nazir təyin etməklə ölkədə xalqın oyanışını cinayətkar rejimin əli ilə sıradan çıxartmağa çalışır. Fransızlar isə heç bir təzyiqdən və hədədən qorxmaq fikrində deyil. Küçələrə çıxaraq E.Makronun kadr siyasətinə qarşı sərt etirazlarını bildirirlər. Fransa Yeni Xalq Cəbhəsi Partiyasının, Milli Ralli Partiyasının və digər sosialistlər tərəfindən təşkil edilən aksiyalarda E.Makronun siyasəti kəskin tənqid olunur və onun istefası tələb edilir. Dekabrın 1-də keçirilən aksiyada Parisdə Bastiliya meydanında keçirilən aksiyada on minlərlə insan iştirak edib. Etirazçılar "Makron, istefa!", "Lənət olsun Barnye hökumətinə!", "Seçkilər bizdən oğurlandı!" şüarları səsləndiriblər. Fransa mətbuatının yazdığına görə, etiraz aksiyalarının bütün ölkə ərazisinə yayılmasından qorxuya düşən E.Makron ordunu paytaxt küçələrinə çıxartmağı düşünür. Bu isə onu təsdiq edir ki, E.Makron polisə inanmır. Makron ehtiyat edir ki, polis aksiya iştirakçılarının tərəfinə keçərək ona qarşı mübarizədə iştirak edə bilər. Bu baxımdan da daha çox etibar etdiyi ordu birləşmələrini iri şəhərlərə çıxarmaqla etirazçıları zərərsizləşdirməyə çalışacaq. Ölkənin "BFMTV" televiziya kanalı sensasion məlumatla çıxış edib. Kanalın yayımladığı verilişdə iddia olunub ki, daxili vəziyyət vətəndaş qarşıdurması halına çevriləcəyi təqdirdə E.Makron hakimiyyəti tərk edərək ölkədən qaça bilər. TV eksperti o fikirdədir ki, E.Makron ölkəni tərk edərək üz tuta biləcəyi məkan Sinqapur ola bilər. Çünki Sinqapurda E.Makronun qiyməti milyon avro ilə ölçülən malikanəsi, başqa adlar altında qeydiyyatdan keçən, lakin ona məxsusluğu heç kimdə şübhə doğurmayan şirkətləri var. Digər tərəfdən E.Makronun Sinqapur Respublikasının Prezidenti Tarman Şanmuqaratnamla dostluq əlaqələri mövcuddur. Məhz əlaqələrin isti olmasından istifadə edərək E.Makron Fransanı tərk edəcəyi halda Sinqapura gedərək qalan ömrünü orada yaşayacaq.

## Florian Filippot E.Makrona çamadanlarını yığıb ölkəni tərk etməyə çağırdı

Diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, Fransa Vətənpərvərlər Partiyasının lideri Florian Filippot E.Makrondan çamadanlarını yığıb ölkəni tərk etməyə çağırıb. Hətta Filippo Fransa lideri Bricit Makronun həyat yoldaşının "Fransızlar ona layiq deyil" sözlərini də ələ salıb və prezident cütlüyünü "çantalarını yığmağa" çağırıb. O, bəyan edib ki, irəli sürülən etimadsızlıq votumunun fitili artıq alovlanıb və "onların bütün sistemini partlatmağa" çağırıb. Fransa Vətənpərvərlər Partiyası ilə yanaşı Yeni Xalq Cəbhəsi, Marin Le Penin rəhbərlik etdiyi Milli Ralli partiyası, həmçinin France Unbowed və sosialistlər Makronun istefasını parlament səviyyəsində tələb edirlər. Makronun istefasına nail olmaq üçün lazımi 577 səsdən minimum 289 alması planlaşdırırlar. Əgər nəzərdə tutulan plan baş tutsa, E.Makron prezident kürsüsündən uzaqlaşdırılacaq. Bundan əvvəl "İtaətsiz Fransa" partiyası ölkə prezidenti Emmanuel Makronun hakimiyyətdən uzaqlaşdırılması təşəbbüsü ilə çıxış etmişdir. "İtaətsiz Fransa" partiyasının parlament fraksiyasının rəhbəri Matilda Pano bildirmişdir ki, Konstitusiyanın 68-ci maddəsinə uyğun olaraq ölkə prezidentinə qarşı impiçment haqqında qərar layihəsi imzalanmaq üçün deputatlara göndərilib.

Makrona qarşı ölkə əhalisinin nifrəti, xüsusilə siyasi partiyaların fəallığı onu deməyə əsas verir ki, hakimiyyətin sonu yaxınlaşır. Bunu Makronun reytinqinin on faizdən aşağı düşməyi də təsdiqləyir. Belə ki, aparılan sorğulara görə, Makronun reytinqi 8, 9 faizə düşüb.

## Fransa uçuruma sürüklənir

Fransada əhalinin sosial-iqtisadi vəziyyətin günü-gündən ağırlaşması fonunda E.Makronun durumunun daha da yaxşılaşması prezidentin xalqı ilə düşmənçilik etdiyini göstərir. Bunu aydın dərk edən fransızlar ondan canlarını qurtarmaq üçün küçələrə çıxır, siyasi partiyaların çağırışlarına dəstək verirlər. Həm də ölkə əhalisi açıq şəkildə E.Makronun müstəmləkə siyasətinə sərt etirazlarını bildirirlər. Əhali aclıq və səfalət içində çabaladığı, şəhərlərin görkəminin acınacaqlı durumda olduğu halda müstəmləkə siyasəti aparılmasına və həmin ərazilərdə möhkəmlənmək milyardlarla avro maliyyə xərclənməsinə qarşı çıxırlar. Məlum faktdır ki, Fransa hələ də sərhədlərindən minlərlə kilometr uzaqlarda, Cənubi və Mərkəzi Amerika, Afrika, Asiya və Okeaniyada 13 ərazini müstəmləkə altında saxlayır. Etiraz edənlər, azadlıq mübarizəsinə qalxanlar qəddarcasına döyülür, təhqir edilir, türmələrə salınaraq işgəncələrlə həyatlarına son verilir. Dünya birliyi, xüsusilə də aparıcı dövlətlər susurlar. Yalnız Azərbaycan müstəmləkəçiliyə qarşı haqq səsini qaldırır, əzilən xalqlara öz dəstəyini göstərir. Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılması azadlıq mübarizəsi aparan xalqlar tərəfindən bir ümid işığı yaradıb. Əzilən, kölə vəziyyətində olan xalqlar Bakı Təşəbbüs Qrupuna ümid çırağı, həyat və azadlıq mənbəyi kimi baxır. Bakıda qəbul olunan bəyanatda qeyd olunub ki, Fransa müstəmləkəçilik siyasətini davam etdirir və insan hüquqlarını pozur. Qrupun yaradılması bununla mübarizə aparmaq məqsədi daşıyır. Bəyanatda vurğulanıb ki, Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində iyulun 6-da Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda dəyirmi masa keçirilib. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı son fransız müstəmləkələrinə həsr olunmuş bu tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verib.

Bəyanatı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Yeni Kaledoniya, Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin nümayəndələri Rok Vamitan, Maqali Tinqal, Dekolonizasiya və Sosial Emansipasiya Hərəkatının təmsilçiləri Moris Pindard, Sindi Polüks, Jan-Viktor Kastor, Martinikanın Azadlığı Partiyasının nümayəndəsi Fransıs Karol, Suveren Martinika Uğrunda Demokratlar və Ekoloqlar Hərəkatını təmsil edən Klodet Düamel, Tavini Huiraatira no te Ao Maohinin nümayəndələri Oskar Temaru, Antoni Geros, Leon Tefo, Ella Tokaragi və Afrika Mundus təmsilçiləri Emmanuel Arqo və Edvin Daiti imzalayıblar.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Fransa və Niderlandın müstəmləkəçilik siyasətindən əziyyət çəkən regionlar Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə sammit və konfranslarda geniş fikir mübadilələrinə qoşulublar. O, bu kimi konfranslardan birində Bakıda müstəmləkələrin təşəbbüsü ilə BTQ-nin yaradıldığını vurğulayıb. A. Abbasov BTQ-yə, onun üzvlərinə, müstəmləkələrdə yaşayan və müstəqillik tərəfdarları olan şəxslərə müəyyən təzyiqlərin olduğunu da qeyd edib: "Bu əslində təbiidir, çünki indiyə kimi, Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə qədər dünya ictimaiyyəti bu müstəmləkələrin mövcudluğundan xəbərsiz idilər və bu regionlarda həyata keçirilən çirkin müstəmləkəçilik fəaliyyətləri haqqında geniş məlumat əldə edə bilmirdilər. Qrupun BMT-də keçirdiyi beynəlxalq konfranslardan, aidiyyəti qurumlara müvafiq hesabatlar təqdim etməsindən sonra bu cür informasiyalar daha geniş formada dünya ictimaiyyətinin diqqətinə çatdırıldı".

## Azadlığa gedən yol uzaqda deyil

Bakı Təşəbbüs Qrupunun fəallığı onu deməyə əsas verir ki, Fransanın müstəmləkə siyasəti uzun çəkməyəcək. Azadlıq mübarizəsinə qalxan xalqlar məqsədlərinə çatacaqlar. Baxmayaraq ki, E.Makron hər cür zorakı vasitələrdən, qəddar üsullardan istifadə etməklə xalqların müstəqil dövlət qurmaq arzularını alt-üst etsin. Əminliklə demək olar ki, yaxın vaxtlarda Yeni Kaledoniya, Fransız Polineziyası, Martinik azadlıqlarına qovuşacaqlar. Bunu dərk edən Makron rejimi bütün işgəncə maşınını sözügedən ərazilərə yeridib. Martinik əhalisi hər cür təzyiq və təhdidlərə baxmayaraq azadlıq mübarizələrindən əl çəkmirlər. Fransa ordusu Makronun əmri əsasında küçələrə çıxan əhaliyə qarşı odlu silahlardan istifadə edir, həbslər həyata keçirir və açıq zorakılıqlar göstərir. Baş verənlərlə bağlı dünya mediası video görüntülər, fotolar paylaşsa da Makron rejimi əməlindən əl çəkmir, əksinə qəddarlığını daha geniş formada tətbiq edir. Bununla Fransa hakimiyyətinin üstəmləkəçilik siyasətinin nə dərəcədə qəddar olduğunu ortaya qoyur. Fransız Polineziyasında da eyni hadisələr yaşanır. Xalq azadlıq mübarizəsinə qalxır və Fransa ordusunun əraziləri tərk etməsini tələb edir. Digər müstəmləkə ərazilərində olduğu kimi Fransız Polineziyasında da azadlıq mübarizəsi xüsusi qəddarlıqla yatırılmasına çalışılır. Ümumiyyətlə faktlara əsasən demək olar ki, iki yüz ilə yaxındır ki, Polineziya Fransa tərəfindən qəsb olunub və əhalisi təhqir edilir, sərvətləri talan edilir. 1946-cı ildə Polineziya qismən müstəqillik əldə etsə də, yenə də Fransanın müdaxiləsi nəticəsində xalq müstəqil dövlətçilik sevincini uzun müddət yaşamaqdan məhrum edilmişdir. Belə ki, 1946-cı il martın 16-da Polineziya BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısına salınsa da, Fransanın təzyiqi nəticəsində 1947-ci ildə siyahıdan çıxarılıb. Lakin bu dəfə Polineziya xalqı öz müstəqillərini qurmağı və işğalçı rejimin ordusunu və digər güc strukturlarını ərazilərindən uzaqlaşdırmağı bacaracaqlar. Artıq Polineziya həm icraedici, həm də qanunvericilik hakimiyyətində üstünlüklər əldə edib. Xalqın sərt mübarizəsi Fransanı çıxılmaz vəziyyətə salıb. Hazırda Fransanın bu ərazilər də çarəsiz durumda olduğu müşahidə edilir. Çünki heç nə edə bilmir. Digər tərəfdən Fransanın müstəmləkə altında saxladığı digər ərazilərdən fərqli olaraq, Polineziyada yerli əhalinin assimilyasiyasına nail ola bilməyib. Bu da imkan verir ki, Polineziya öz dövlətçiliyini qursun. Təbii ki, Yeni Kaledoniya, Fransız Polineziyası, Martinik azadlıqlarına qovuşsalar prosesin qarşısını almaq mümkün olmayacaq. Yəni digər müstəmləkə altında əzilən xalqlar dövlətçiliklərini quran ərazilərin təcrübəsindən bəhrələnməklə istəklərinə çatacaqlar. Beləliklə, Fransa hakim rejiminin müstəmləkə siyasətinə son qoyulacaq.

***İLHAM ƏLİYEV***

# Andrey Kortunov: "Azərbaycan təkcə regionda deyil, qlobal miqyasda da mükəmməl manevrlər edir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*



***Rusiya Beynəlxalq Əlaqələr Şurasının elmi direktoru Andrey Kortunov "Moskva-Baku" portalına müsahibəsində Donald Trampın Cozef Bayden administrasiyasının Cənubi Qafqazdakı aqressiv siyasətinə necə müsbət düzəlişlər edə biləcəyini açıqlayıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

***-Andrey Vadimoviç, Gürcüstan parlament seçkilərindən sonra sarsılır, Rusiya mütəmadi olaraq Qərbin Cənubi Qafqazda sabitliyi pozmaq cəhdlərinə işarə edir, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanmayıb... Belə bir şəraitdə regionda nə gözləmək olar?***

-Cənubi Qafqazın bir çox Qərb ölkələri üçün əhəmiyyəti artıb, region Rusiya ilə, qismən də İranla qarşıdurma məkanlarından biri hesab olunur, baxmayaraq ki, indi əvvəlkindən daha az dərəcədə.

Amma tarix faktorunu və regionda iqtisadi maraqları nəzərə almalıyıq. Zaqafqaziya ölkələrində əhalinin Qərbə meylli olmayan bir hissəsi var. İndi də Gürcüstanın timsalında görürük ki, bu halda cəmiyyətdə parçalanma var.

Son günlər Tbilisidə baş verənlər cəmiyyət daxilində son illərdə görünməmiş qarşıdurma və parçalanma səviyyəsidir. Gürcüstanda küçə etirazlarının inkişaf etmiş siyasi mədəniyyəti var və çoxları buna öyrəşib. Amma indiki vəziyyət birmənalı olaraq hüquqi çərçivədən kənara çıxır. Və bu halda Qərb kənardan müşahidəçi olaraq qalmır, baş verənlərin iştirakçısıdır. Biz Qərb ölkələrinin liderlərindən əhalinin küçələrə çıxması, seçkilərdə seçilmiş hakimiyyətə qarşı mübarizə çağırışları eşidirik. Vaşinqton Tbilisi ilə strateji tərəfdaşlığı dayandırır. Bundan başqa, Gürcüstanın hazırkı prezidenti Salome Zurabişvili də əhalini fəal şəkildə küçələrə çıxmağa çağırır, bu və ya digər dərəcədə etiraz aksiyalarında iştirak edir və üstəlik, seçkidən sonra da postunu tərk etməyəcəyini bəyan edib. O iddia edir ki, yaxın həftələrdə yeni prezident seçiləcək: guya sentyabrda hakim "Gürcü Arzusu"nun qalib gəldiyi parlament seçkiləri qeyri-legitim imiş. İş o yerə çatıb ki, Zurabişvili məktəbliləri etirazlara qoşulmağa çağırıb və bu, qismən həyata keçirilib.

Görünür, indi Gürcüstanda 2013-cü ilin sonu- 2014-cü ilin əvvəlində Kiyevdə gördüyümüz sxemi- "Maydan"ı həyata keçirmək cəhdi var. Xatırlatım ki, Qərbin bu sxemi həyata keçirməsi Ukraynada dövlət çevrilişinə, prezidentin hakimiyyətdən uzaqlaşdırılmasına və ondan sonrakı bütün hadisələrə gətirib çıxardı. Təbii ki, Gürcüstanda inkişaf edən ssenari çox təhlükəli tendensiyadır. Gürcüstanın hakim partiyası isə indi ekstremal şəraitdə işləməli, sabitliyi və asayişi bərpa etməyə çalışmalıdır.

Gürcüstanın baş nazirinin rəsmi Tbilisinin ölkənin Avropa İttifaqına daxil olması ilə bağlı danışıqları 2028-ci ilə təxirə saldığını necə taktiki şəkildə açıqlamalı olduğunu qiymətləndirmək çətindir. Göründüyü kimi, bu qərar Qərbin ötən parlament seçkiləri ilə bağlı ölkədəki daxili vəziyyətə müdaxilə etmək və bununla da Gürcüstanın suverenliyini pozmaq üçün ardıcıl cəhdlərinə cavab olaraq emosional reaksiya olub. Hər şeyin sonda necə olacağını demək hələ çətindir. Ola bilsin ki, "Gürcü arzusu" mötədil müxalifətlə anlaşmağa çalışsın ki, radikal müxalifət kənara çəkilsin və özünü siyasi qanadlar mövqeyində görsün.

Eyni zamanda, Gürcüstanla bağlı vəziyyətdə və Cənubi Qafqaz üçün yaxın gələcək üçün ümumi perspektivlər baxımından mühüm və böyük ölçüdə müəyyənedici amil Donald Trampın yanvarda ABŞ-a rəhbərlik edəcəyidir. ABŞ-ın hazırkı prezidentinin administrasiyasının hakimiyyətdə çox vaxtı qalmayıb. Və Tramp administrasiyası ABŞ-ın xarici siyasət prioritetlərini əhəmiyyətli dərəcədə dəyişə bilər. Tramp üçün Baydenin liberal demokratiyalara və qeyri-liberal avtokratiyalara qarşı çıxması o qədər də əhəmiyyətli deyil və bəlkə də çox yaxın gələcəkdə Bayden illərində müşahidə olunan Amerika siyasətinin Cənubi Qafqazdan (xüsusilə və ilk növbədə Ermənistandan Qərbin dirijoru kimi) istifadəsinə meylli liberal dəyərlər) Tramp dövründə Rusiyaya qarşı alət kimi əhəmiyyətli dərəcədə yenidən nəzərdən keçirilə bilər. Görünür, buna görə də Bayden administrasiyası indi 2025-ci ildə ABŞ-ın və bütövlükdə Qərbin Cənubi Qafqazdakı mövqeyini 2025-ci ildə dəstəkləməyə əsaslanaraq gələcək üçün diqqət mərkəzində saxlamağa çalışır. Zaqafqaziyadakı Qərb qüvvələri əhəmiyyətli dərəcədə azaldıla bilər.

Tramp mütəmadi olaraq bildirir ki, o, Ukrayna ilə bağlı münaqişənin sona çatmasına kömək etmək niyyətindədir. Eyni şey Cənubi Qafqaza da şamil olunacaq ki, ABŞ-ın seçilmiş prezidenti Bayden dövründə bu diqqəti gücləndirməkdən fərqli olaraq, Qərbin diqqətini Transqafqaz üzərindəki mənfi diqqətini azalda bilər.

Müvafiq olaraq, Qərbin Gürcüstanda dövlət çevrilişi təşkil etməyə və "Gürcü Arzusu"nu yerindən tərpətməyə nail olduğu, radikal müxalifəti ölkənin başına qoyduğu potensial ssenaridə Tramp Gürcüstanın Rusiyaya qarşı ikinci cəbhə açması imkanını düşünmür. Çünki dediyim kimi, o, münaqişəyə son qoymaq planları ilə bağlı açıqlamalar verir. Bundan əlavə, Gürcüstanın özü üçün ikinci cəbhənin açılması, kimin rəhbərlik etməsindən asılı olmayaraq, ölümcül addım olardı.

Nəticə etibarı ilə Trampın diqqətini Xəzər regionu və Cənubi Qafqaza yönəltməsi bir neçə il əvvəl prezident kimi ilk dövründə olduğu kimi yenidən İrana yönələ bilər. Eyni zamanda, mən deyərdim ki, ABŞ-ın yeni seçilmiş prezidenti Tehranla razılığa gəlmək, nəinki İranın nüvə proqramına, həm də İslam Respublikasına qarşı yanlış regional davranışla bağlı Vaşinqtonun qəbul etdiyi şeylərə məhdudiyyətlər qoyan hansısa sazişə nail olmaq istəyir. Belə bir razılaşma Tramp üçün faydalı olardı, mən inanıram ki, Trampın nümayəndələri ilə İran rəhbərliyi arasında qeyri-rəsmi əlaqələr artıq davam edir. Amma bu cəhdlər uğursuz olarsa, İranla Amerika şərtləri ilə razılığa gəlmək mümkün olmasa (çünki Trampın tələbləri kifayət qədər sərt olacaq), ABŞ-ın seçilmiş prezidenti İslam Respublikasına artıq bizə tanış olan maksimum təzyiq strategiyasına qayıda bilər. Və bu, yeni sanksiyaları və Yaxın Şərq regionunda müxtəlif nov anti-İran koalisiyalarına dəstəyi ehtiva edəcək. Və NATO-nun ərəb versiyası yaradıla bilər ki, Tramp və onun ətrafında olan insanlar bir vaxtlar bu haqda çox danışırdılar. Və bu halda Trampın Cənubi Qafqazdakı siyasəti onun İranı cilovlamaq strategiyasına əsaslanacaq.

***-Rusiya xüsusi xidmət orqanlarının məlumatına görə, ABŞ Ermənistanın baş nazirinin Qərbin diktə etdiyi kursun həyata keçirilməsinə nəzarət etmək üçün Ermənistanda qərbyönlü partiyaların təsirini gücləndirmək niyyətindədir...***

- Ermənistanın hazırkı rəhbərliyi imkan daxilində Qərblə əlaqələri ardıcıl olaraq genişləndirir. Eyni zamanda, Nikol Paşinyan kifayət qədər təcrübəli və hiyləgər siyasətçi kimi başa düşür ki, Ermənistan müəyyən balansı saxlamalıdır, Rusiya ilə əlaqələri kəsmək Ermənistanın Rusiya Federasiyasından iqtisadi asılılığının səviyyəsini nəzərə alsaq, yersizdir və üstəlik, Ermənistan üçün dağıdıcı olardı.

Ermənistanın baş naziri isə imkan daxilində Rusiya və digər MDB ölkələri ilə əlaqələri saxlamağa çalışır. Eyni zamanda, Ermənistanın siyasi məkanında Rusiya Federasiyası ilə münasibətlərin tamamilə kəsilməsinə və ölkənin Aİ-yə namizəd statusu almaq vektoruna meylli olan başqa, daha radikal düşüncəli qüvvələr var. Getməkdə olan Bayden administrasiyası, necə deyərlər, gələcək üçün Ermənistandakı mövqelərini ortaya qoymaq üçün onlara arxalanmağa qərar verdi.

Maraqlıdır ki, Cənubi Qafqazın digər ölkələrindən fərqli olaraq, Azərbaycan regionda mövcud vəziyyətdə özünü inamla hiss edir. Bu etimad Qarabağ münaqişəsinin həllindən, onun ərazi bütövlüyünün bərpasından, eləcə də iqtisadiyyatın vəziyyətindən, üstəgəl Qərbin Azərbaycandan enerji resursları almaqda maraqlı olmasından və Azərbaycan Respublikasının ərazisindən tranzit nəqliyyat dəhlizi kimi istifadə imkanından irəli gəlir. Bu gün Qərblə münasibətlərdə Bakının mövqeyi obyektiv cəhətdən güclüdür. Bunu Azərbaycan rəhbərliyi də hiss edir, Bakının həm tərəfdaşları, həm də əleyhdarları bunu hiss edirlər.

Azərbaycanı, məsələn, Gürcüstanla müqayisə etsək, aydın olar ki, Gürcüstan Respublikasında siyasi vəziyyət qeyri-sabitdir və orada parçalanma var. Azərbaycanda sabitlik hökm sürür. Bu isə ona inam verir və Azərbaycan rəhbərliyinə Qərb tərəfdaşları ilə münasibətdə inamlı mövqe tutmağa imkan verir. Bunu Azərbaycan Prezidentinin Qərb dövlətləri və strukturlarına qarşı mütəmadi olaraq səsləndirdiyi açıq və çox ciddi tənqidlər sübut edir.

Azərbaycanın elan etdiyim statusu ona imkan verir ki, Qərbin öz maraqlarını həyata keçirmək üçün Cənubi Qafqaza qarşı müəyyən qədər neqativ siyasət qurmaq cəhdlərinə qarşı çıxan amil kimi çıxış etsin. Regionda hansı dövlətlərin daxili siyasi proseslərə müdaxilə cəhdlərindən immunitetə malik olduğunu təhlil etsək, təbii ki, burada Azərbaycan öz qonşularından açıq şəkildə fərqlənir. Aydındır ki, Azərbaycana Türkiyə və Rusiyanın təsirindən də danışmaq olar. Amma Azərbaycan özünü elə bir mövqedən tutur və siyasətini elə aparır ki, bu təsir heç bir halda respublikanın milli prioritetlərinə zidd olmasın. Milli prioritetlər Bakı üçün hər şeydən əvvəldir. Azərbaycan isə təkcə regionda deyil, daha qlobal mənada mükəmməl manevrlər edir.

-Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə ən yüksək səviyyələrdə aparılan danışıqlarda sükunət var. Bunun İrəvanın Ermənistan Konstitusiyasını dəyişməsi problemi ilə əlaqəsi varmı? Ermənistan mətbuatı yazır ki, Paşinyan ölkə daxilində mövqələrini möhkəmləndirmək üçün gələn il növbədənkənar parlament seçkiləri keçirmək niyyətindədir. Sonra da Konstitusiya dəyişikliyinə gedəcək. Bu barədə nə düşünürsünüz? Üstəlik, sülh müqaviləsinin imzalanmasının gecikdirilməsi bəzi qüvvələrin bundan sui-istifadə etməyə və yenidən Bakı ilə İrəvan arasında vəziyyəti pozmağa cəhd göstərməsinə səbəb ola bilər. Yoxsa Trampın Cənubi Qafqazla bağlı sizin proqnozlaşdırdığınız mövqeyini nəzərə alsaq, bu mümkün deyil?

-Ermənistan Konstitusiyasının dəyişdirilməsi məsələsi Paşinyan hakimiyyəti üçün asan deyil. Və burada anlayış göstərməliyik. Ermənistanın baş nazirinin kəskin addımları ölkədə siyasi böhrana səbəb ola bilər. Üstəlik, Paşinyanın hakimiyyətdə olduğu illər ərzində radikal millətçi qüvvələr onu devirmək üçün uğursuz cəhdlər ediblər və bu addımları üçün hər cür bəhanədən istifadə etməkdə davam edirlər. Ona görə də Nazirlər Kabinetinin rəhbərinin bununla bağlı ehtiyatlılığı başa düşüləndir. Etiraf edirəm ki, Ermənistan hökumətinin başçısı həqiqətən növbədənkənar parlament seçkiləri keçirmək niyyətindədir.

Məntiq və sağlam düşüncə Ermənistan hakimiyyətinə deyir ki, onlar sülh müqaviləsi bağlamaq istiqamətində hərəkət etməlidirlər. Və hesab edirəm ki, Paşinyan həqiqətən də bunu hədəfləyir. Trampın Cənubi Qafqazda gələcək mümkün siyasətini və regionda Qərb intriqalarının zəifləməsini nəzərə alsaq, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün az-çox rahat şərait yaranacaq.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
5 dekabr
2024-cü il

# Məktəbəqədər təhsildə "ailə modeli" yaradılacaq



Elm və təhsil naziri Emin Əmrullayev "Məktəbəqədər təhsildə keyfiyyətə yeni baxış" adlı II beynəlxalq konfransda çıxışı zamanı bəyan edib ki, daha kiçik kəndlərdə məktəbəqədər təhsildə "ailə modeli" yaratmaq üçün pilot layihə üzərində iş gedir.

Nazir qeyd edib ki, ucqar kəndlərdə avtobus vasitəsilə məktəbəqədər təhsil xidmətini göstərmək planlaşdırılır. SİTAT: "İcma əsaslı məktəbəqədər təhsil mümkün olmayan ərazilərdə bu modeli tətbiq edəcəyik. Bu modeldə uşaqların bir ailədə təhsil alması nəzərdə tutulur. Ucqar kəndlərdə bunun üçün avtobuslar ayrıla bilər".

## Masazırda dəhşətli qətl hadisə: 4 uşaq anası ərini öldürüb

Masazır qəsəbəsində evlərdən birində arvad ərini bıçaqlayıb. Baş vermiş qətl hadisəsinin təfərrüatı məlum olub. Hadisə saat 14 radələrində Masazır qəsəbəsində yerləşən evlərdən birində qeydə alınıb. Ailə münaqişəsi zəminində 1993-cü il təvəllüdlü Ayxan Əhliman oğlu Hacızadə həyat yoldaşı 1993-cü il təvəllüdlü Nazirə Nazir qızı Əliyeva tərəfindən bıçaqlanıb. Yaralı xəstəxanaya çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmayıb.

Qeyd edək ki, onların dörd övladı olub və yaşadıqları mənzildə kirayə qalırmışlar. Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.




## ELAN

Xırdalan şəhəri, AAAF park, 28-ci küçənin 6-cı binasında yerləşən Əhədova Esmira Qiyasovnaya məxsus mənzilin sənədləri(müqavilə,çıxarış ) itdiyi üçün etibarsız sayılır.

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Messi dünya ulduzları ilə birgə Bakıya gəlir




Futbol əfsanəsi Lionel Messi və dünya ulduzları Luis Suares, Serxio Buskets (Sergio Busquets) və Xordi Alba (Jordi Alba) Bakıya gəlirlər. QOL.az xəbər verir ki, dekabrın 11-də Bakı Kristal Zalında keçiriləcək tədbirdə pərəstişkarlar dünyanın ən yaxşı futbolçusu - dünya çempionu, səkkiz dəfə "Qızıl top" mükafatı qazanan Lionel Messi və komanda yoldaşlarını görmək imkanı qazanacaq. İştirakçılar futbol ulduzları ilə birlikdə maraqlı, unudulmaz anlar yaşayacaq, Messinin futbol həyatını və mübarizəsini əks etdirən filmi izləyə biləcək. Filmdə izləyicilərə futbol ulduzunun həyatı və karyerası ilə bağlı unikal anlar təqdim olunacaq.

Tədbiri xüsusi musiqi atmosferi müşayiət edəcək. Bakı Kristal Zalının səhnəsində dünyaşöhrətli bəstəkar və müğənni Villi Uilyam (Willy William), məşhur "Morandi" qrupu çıxış edəcək. İştirakçılara enerjili və yaddaqalan ritmlərlə musiqili proqram təqdim olunacaq.

## Vatsap bu cihazlarda işləməyəcək



WhatsApp tezliklə köhnə iPhone modelləri üzərində işləməyi dayandıracaq. Milli.Az xarici mətbuata istinadən xəbər verir ki, "WhatsApp"ın bir çox köhnə iPhone modelləri üçün dəstəyi dayandırmağı planlaşdırdığı bildirilir. Yeni hesabata görə, Meta-ya məxsus mesajlaşma proqramı iOS 15-dən köhnə iOS versiyaları ilə işləyən bütün iPhone modelləri üçün dəstəyi dayandırmağı planlaşdırır.

WhatsApp hazırda iOS 12 və daha yeni iOS versiyaları ilə işləyən bütün iPhone modellərini dəstəkləyir. Lakin indi şirkət köhnə iOS versiyaları ilə müqayisədə bəzi köhnə iPhone modellərinə dəstəyi dayandırmağı planlaşdırır. WhatsApp-ın yeni və gələcək funksiyalarını izləyən və hesabat verən sayt olan WABetaInfo-nun hesabatına görə, mesajlaşma platforması iOS 15.1 ilə işləyən iPhone-lar üçün dəstəyi dayandırmağı planlaşdırır.

Qeyd etmək lazımdır ki, iOS 15 iPhone 5s, iPhone 6 və iPhone 6 Plus daxil olmaqla bəzi köhnə iPhone modellərini dəstəkləmir. Bu o deməkdir ki, Meta iOS 15.1 və daha köhnə versiyaları ilə işləyən iPhone-lar üçün dəstəyini dayandırır, bu cihazların istifadəçiləri öz iPhone-larında WhatsApp-ı işlədə bilməyəcəklər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700